YÜKSƏK TƏHSİL UĞRUNDA!

# İLAHİYYATÇI

www.ait.edu.az

*Təsisçi: Azərbaycan İlahiyyat İnstitutu* *İyun, 2019-cu il / № 07*

## Prezident İlham Əliyev Ramazan Bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib



Prezident İlham Əliyev Ramazan Bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib.

AZƏRTAC xəbər verir ki, təbrikdə bəşər övladını xeyirxahlığa, birliyə, mənəvi kamilliyə dəvət edən, öz mahiyyəti ilə insanların ruhunu təzələyən Ramazan ayının dünya müsəlmanlarının ən əziz ayı olduğu bildirilir. Qeyd edilir ki, oruc tutmaqla inanclı insanlara mənəvi-ruhi ucalığın, əxlaqi saflığın fərəhini, şəfqət, mərhəmət, həmrəylik duyğularının sevincini yaşadan Ramazan ayı ilahi hikmətlər xəzinəsi müqəddəs "Qurani-Kərim"in nazil olması ilə əlamətdardır. Ramazan Bayramı günlərində mömin vətəndaşlarımız Uca Yaradan qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək, mənəvi zənginliyin üstünlüyünü yaşamaq fürsəti qazanırlar.

Vurğulanır ki, Azərbaycan İslam sivilizasiyasının tərkib hissəsi kimi, bəşəriyyətin mədəni irsinə öz töhfələrini verib, böyük alimlər və mütəfəkkirlər yetişdirib. İslam və onun mahiyyətindən irəli gələn sülhpərvərlik, dözümlülük, bərabərlik, qardaşlıq və bu kimi dəyərlər Azərbaycanda tolerantlıq mühitinin, cəmiyyətdə vəhdət və harmoniyanın yaranmasında, multikulturalizm və humanizm ideyalarının bərqərar olmasında müstəsna rol oynayıb.

Təbrikdə qeyd edilir ki, bu günlər ölkəmizin hər yerində xalqımızın əmin-amanlığı üçün dualar edilir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. "İnanıram ki, bu müqəddəs bayram günlərində sizin dua və diləkləriniz Tanrı dərgahında qəbul ediləcək, Uca Yaradan öz mərhəmətini xalqımızdan əsirgəməyəcəkdir. Bir daha hər birinizi və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımızı ürəkdən təbrik edir, ailələrinizə səadət, süfrələrinizə bol ruzi və bərəkət arzulayıram", - deyə dövlətimizin başçısı bildirir.

### Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan Bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan Bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyevanın təbrikində deyilir: "Əziz həmvətənlər, Sizi müqəddəs Ramazan bayramı münasibətilə təbrik edirəm. Bu mənəvi yenilənmə və təmizlənmə bayramında sizə xoşbəxtlik və rifah, saf niyyətlər və xeyirxah işlər arzu edirəm. Allah sizin bütün oruclarınızı və dualarınızı qəbul etsin, Vətənimizə sülh, xoşbəxtlik, xoş günlər və firavanlıq bəxş etsin".



### Birinci vitse-prezident Mehriban Əliyeva Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan xalqını təbrik edib

Birinci vitse-prezident Mehriban Əliyeva Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan xalqını təbrik edib.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi "İnstaqram" səhifəsində edilən paylaşımda deyilir:

Əziz həmvətənlər!

Əziz hərbi qulluqçular və veteranlar!

Bu gün biz Azərbaycan Silahlı Qüvvələri Gününü qeyd edirik. Bu, hərbi rəşadət, şərəf və igidlik bayramıdır. Bu gün biz həyatını riskə məruz qoyaraq Vətənimizi müdafiə edənlərin qəhrəmanlığına ehtiramımızı bildiririk.

Silahlı Qüvvələr Günü əsl ümumxalq bayramıdır. Ordu bizim dövlətçiliyimizin, təhlükəsizliyin və sabitliyin dayağıdır. Dövlətin hərbi qüdrəti bir çox amillərlə şərtlənir. Lakin bizim ordumuzun əsas gücü Azərbaycanın əsgər və zabitlərinin döyüş ruhu və Vətənə hədsiz sevgisidir.

Əziz hərbçilərimiz! Biz sizin mərdliyiniz, şücaətiniz və ən yüksək peşəkarlığınızla fəxr edirik. Bu əlamətdar bayram münasibətilə sizi ürəkdən təbrik edirəm".

## "Heydər Əliyev Azərbaycan xalqının qurtuluş mübarizəsinin qalibidir"



⇨ Bax: səh. 5

## Azərbaycan İlahiyyat İnstitutu bölgələrdə

⇨ Bax: səh. 13

## Mötədillikdən nəyi anlamalıyıq?

⇨ Bax: səh. 15

## Regionun ən güclü hərbi qüvvəsi: Azərbaycan Ordusu

⇨ Bax: səh. 8

## Milli Qurtuluşumuzun banisi

⇨ Bax: səh. 2

## "Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə" mövzusunda beynəlxalq konfrans

⇨ Bax: səh. 3

## Çin Xalq Respublikasının "Nanjing Hanjia Cultural Exchange" Təşkilatının nümayəndələri ilə görüş

⇨ Bax: səh. 7

# Milli Qurtuluşumuzun banisi




1993-cü ilin yazında Azərbaycan təlatümlü günlər keçirirdi. Azadlığımızı gözü götürməyən qüvvələr müstəqilliyi hələ kövrək olan ölkəmizi hərbi poliqona çevirmişdilər. Bir tərəfdən, Ermənistan qoşunlarının təcavüzü, digər tərəfdən, silahlı qrupların özbaşınalıqları, iqtisadiyyatın iflic vəziyyətə düşməsi, çörək qıtlığı və digər amillər hakimiyyət böhranını təhlükəli həddə çatdırmışdı. Hakimiyyətdə olan AXC-Müsavat cütlüyü ölkəni idarə etməkdə çətinlik çəkirdi. Şəhərlərdə insanlar axşamdan-sübhədək çörək növbəsində durmalı olurdular. Bunlardan da betər işğalçı erməni qoşunlarının ölkəmizin içərilərinə doğru sürətlə irəliləməsi idi. Düşmənlərimiz torpaqlarımızı maneəsiz işğal edir, köməksiz qalmış soydaşlarımız şəhid olur və yaralanıb sıradan çıxırdılar. Ölkənin iqtisadi, ictimai-siyasi və digər sahələrində gərginlik təhlükəli hal almışdı. Gənc dövlətimizin müstəqilliyi tükdən asılı vəziyyətə düşmüşdü. İnsanların gələcəyə olan ümidləri qırılmışdı.

Belə bir təhlükəli zamanda Gəncədə dislokasiya olunmuş sovet ordu hissələrinin bütün arsenalını ələ keçirmiş Surət Hüseynov hakimiyyətə nəinki tabe olmur, əksinə, dövlət başçılarından istefa verməyi qətiyyətlə tələb edirdi. Xarici qüvvələrin təsiri altına düşən Surət Hüseynovun hərəkətləri ölkənin müstəqilliyinə qarşı hesablanmışdı. AXC-Müsavat rəhbərliyi Surət Hüseynovu neytrallaşdırmaq məqsədilə "Tufan əməliyyatı" hazırladı. Plana əsasən, Gəncə şəhəri mühasirəyə alınmalı, oradakı qanunsuz silahlı dəstələr zərərsizləşdirilməli və qayda yaradılmalı idi. Milli Təhlükəsizlik nazirinin birinci müavini Sülhəddin Əkbər Gəncədəki qərargahında hadisələrin gedişini izləyir və münaqişəni dinc yolla nizamlamağa çalışırdı. Onların düşündükləri kimi olmadı. Briqada komandiri, polkovnik Surət Hüseynov danışıqlardan imtina etdi və döyüş baş verdi. Hər iki tərəfdən ölənlər və yaralananlar oldu, şəhər təsərrüfatına ciddi ziyan dəydi. Döyüş nəticəsində hökumət qüvvələri məğlub olub geri çəkildilər. Qələbəsindən ruhlanan Surət Hüseynov tabeliyindəki qoşunları zirehli texnikanın müşayiəti ilə Bakı üzərinə hücuma göndərdi. Özbaşınalıq edən surətçilər rayonlara daxil olub, rəhbər vəzifəli şəxsləri döyüb təhqir edir, işdən qovur, öz adamlarını qeyri-qanuni yolla İcra Hakimiyyətinin başçısı təyin edirdilər.

Səbir kasası dolmuş xalq ayağa qalxaraq ölkəni bəlalardan xilas edəcək yeganə şəxsiyyəti - Heydər Əliyevi hakimiyyətə gəlməyə çağırdı. Xalqın səsinə həmişə səs vermiş dahi rəhbər Bakıya gəldi və vəziyyətlə yerində tanış olmaq üçün bir dəstə jurnalistlə Gəncəyə yollandı. Oradan qayıdan kimi, dərhal gördükləri barədə xalqa geniş məlumat verdi. Bu ərəfədə Surətin hədələrindən qorxuya düşmüş Ali Sovetin Sədri İsa Qəmbər, bir neçə gün sonra Baş nazir Pənah Hüseynov və digərləri istefa verdilər, Xarici İşlər naziri Tofiq Qasımov vəzifəsini "dondurduğunu" bildirdi. Onlardan bir qədər sonra isə Prezident Əbülfəz Elçibəy gizli şəkildə doğulduğu Kələki kəndinə getdi, ölkəni oradan idarə edəcəyini bildirdi.

1993-cü il iyunun 15-də keçirilən iclasda Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Həmin iclası televiziya ilə həyəcanla izləyən xalq, nəhayət, dərindən nəfəs aldı. Hamıda bir məmnunluq və arxayınlıq yarandı ki, bütün dünyanın tanıdığı dahi şəxsiyyət Azərbaycanı düşdüyü təhlükələrdən qurtaracaq. Belə də oldu.

Ümummilli Lider hakimiyyətə ikinci dəfə gəlişi ilə bütün məsuliyyəti öz üzərinə götürdü, cəbhədə atəşkəsin əldə olunmasından istifadə edərək, respublikada ictimai-siyasi sabitliyin bərpasına, kriminogen vəziyyətin aradan qaldırılmasına, vahid komandanlıq altında nizami ordunun yaradılmasına, iqtisadiyyatın dirçəldilməsinə, cəmiyyətin bütün sahələrində islahatların həyata keçirilməsinə nail oldu.



**CEYHUN MƏMMƏDOV,**
*Azərbaycan İlahiyyat İnstitutunun rektoru*

Beləliklə, 15 İyun Azərbaycan xalqının tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu. Azərbaycan xalqı bu günü özünün ən böyük bayramlarından biri kimi qeyd edir.

Hər zaman xatırlamalıyıq ki, Heydər Əliyevin son dərəcə ağıllı addımları nəticəsində, Azərbaycanın kövrək müstəqilliyi möhkəmləndi və tarix üçün çox qısa zaman kəsiyində sarsılmaz oldu. Cəmi bir neçə il ərzində müstəqil Azərbaycan Respublikasının ilk Milli Konstitusiyasının qəbul edilməsi, demokratik yolla prezident və bələdiyyə seçkilərinin keçirilməsi, Şərqdə ilk dəfə olaraq ölüm cəzasının ləğvi, mətbuat üzərindən senzuranın götürülməsi, siyasi plüralizm və çoxpartiyalı sistemin dəstəklənməsi, bütün sahələrdə köklü islahatlar, iqtisadi yüksəliş və bir çox digər məsələlər unudulmaz rəhbərimiz Heydər Əliyevin adı ilə bağlıdır. "Əsrin müqaviləsi"nin bağlanması, Bakı-Tbilisi-Ceyhan Neft Kəmərinin çəkilməsi, Bakı-Tbilisi-Ərzurum Qaz Kəmərinin həyata vəsiqə qazanması, "Böyük İpək Yolu"nun bərpası Ulu Öndərin Azərbaycan xalqı və beynəlxalq ictimaiyyət qarşısında göstərdiyi böyük xidmətlərdəndir.

Biz bu gün fəxrlə deyirik ki, Ümummilli Lider torpağı hər gün işğala məruz qalan, hərc-mərcliyin baş alıb getdiyi, iqtisadiyyatı darmadağın olan, cinayətkar silahlı dəstələrin at oynatdığı bir dövlətə rəhbərlik edərək, onu qısa müddətdə sivil bir dövlətə çevirməyi bacardı. Dahi rəhbər Azərbaycana dövlət müstəqilliyi, azərbaycanlılara azadlıq bəxş etdi; ölkəmizdə insanların firavan yaşamaları üçün lazım olan hər şəraiti yaratdı. Azərbaycan beynəlxalq miqyasda tanınmağa və nüfuz qazanmağa başladı. Qısaca olaraq söyləməliyik ki, Ulu Öndərin geniş fəaliyyətinin çox qısa xülasəsi olan bu yazdıqlarımıza əsasən deyə bilərik ki, Heydər Əliyev əsrinin ən böyük dövlət xadimi və siyasətçisidir.

Dünyanın məşhur dövlət başçıları Heydər Əliyevi əsrin ən istedadlı dövlət və siyasi xadimi kimi yüksək qiymətləndirmişlər. ABŞ-ın keçmiş prezidenti Bill Klinton demişdir: "Azərbaycanın demokratiya və bazar iqtisadiyyatı yolu gedən bir müstəqil dövlət kimi möhkəmlənməsində, iqtisadi islahatların aparılmasında və böyük inkişaf əldə olunmasında Prezident Heydər Əliyevin müstəsna rolu vardır".

Çox yerində deyilmiş bir kəlam var: "Nə qədər ki, müstəqil Azərbaycan Dövləti var, Azərbaycan xalqı var, Heydər Əliyev ürəklərdə yaşayacaqdır!".

# “Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə” mövzusunda beynəlxalq konfrans

## KONFRANSDA VYANA BƏYANNAMƏSİ QƏBUL EDİLİB

İyunun 19-da Avstriyanın paytaxtı Vyana şəhərinin “Hofburq” sarayında Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) nəzdində Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin, KAİCİİD Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin, Cenevrə İnsan Hüquqları və Qlobal Dialoq Mərkəzinin və Azərbaycanın Avstriyadakı Səfirliyinin birgə təşkilatçılığı ilə “Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə” mövzusunda beynəlxalq konfrans keçirilib.

Konfransın təşkili Prezident İlham Əliyevin irəli sürdüyü Azərbaycanın multikulturalizm modelinin təbliğinin bəşəri önəminə diqqət çəkmək, dinlərarası və sivilizasiyalararası dialoq və əməkdaşlığın inkişaf etdirilməsinin müasir dünyanı narahat edən problemlərin aradan qaldırılmasında müstəsna əhəmiyyətini vurğulamaq məqsədi daşıyır. Avropanın aparıcı dövləti olan və müxtəlif mədəniyyətlərin, dinlərin təmsil olunduğu Avstriyada keçirilən beynəlxalq konfrans mühüm, qlobal əhəmiyyət kəsb edən bu mövzuya dünya ictimaiyyətinin diqqətini daha da artırmaq, sülhü və əmin-amanlığı təhdid edən amillərə, xüsusilə, dinlərarası ixtilaflara qarşı müxtəlif mədəniyyətlərin, sivilizasiyaların və dinlərin nümayəndələrinin birgə mövqeyini nümayiş etdirmək məramına xidmət edir.



Vyana konfransında Avstriya və Azərbaycanın dövlət və qeyri-hökumət təşkilatları, o cümlədən, dünyanın müxtəlif dini konfessiya rəhbərləri, dövlət, elm və mədəniyyət xadimləri, Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin Himayədarlar və Məşvərət şuralarının üzvləri iştirak ediblər. Beynəlxalq konfransda ümumilikdə dünyanın 30-dan çox ölkəsini təmsil edən dövlət, ictimaiyyət, elm və din xadimləri, həmçinin 5 beynəlxalq və 16 qeyri-hökumət təşkilatının rəhbərləri, Avstriyada akkreditə olunmuş səfirliklərin və beynəlxalq qurumların nümayəndələri təmsil olunurdular. Avstriya tərəfdən Federal Hökumətin və parlamentin nümayəndələri, o cümlədən, Avstriya Xarici İşlər Nazirliyinin Baş katibi-nazir müavini Yohannes Peterlik, Avstriyadakı 15 dini konfessiyanın nümayəndələri iştirak ediblər.




Azərbaycan nümayəndə heyətinin tərkibinə Qafqaz Müsəlmanları İdarəsinin sədri, Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin baş katibi Şeyxülislam Allahşükür Paşazadə, Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik Akif Əlizadə, Azərbaycanın Avstriyadakı səfiri Qalib İsrafilov, Milli Məclisin komitə sədrləri Siyavuş Novruzov, Səməd Seyidov, Eldar İbrahimov, deputatlar Cavanşir Paşazadə, Hikmət Məmmədov, Azərbaycandakı dini konfessiyaların rəhbərləri - Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr, Bakı Dağ yəhudiləri dini icmasının rəhbəri Melih Yevdayev, Roma Katolik Kilsəsinin Azərbaycandakı ordinarisi yepiskop Vladimir Fekete və Alban-Udi xristian dini icmasının başçısı Robert Mobili daxildir.




Konfransın açılışında Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov dövlətimizin başçısı İlham Əliyevin tədbir iştirakçılarına Müraciətini oxuyub.

Vyana konfransında Azərbaycanın sivilizasiyalararası və dinlərarası əməkdaşlığın inkişafında rolundan və multikulturalizm dəyərlərindən bəhs edən “Bəşəri çağırış” filmi nümayiş olunub.



Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə çıxış edərək Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını və xoş arzularını konfrans iştirakçılarına çatdırıb. Azərbaycanda 2017-ci ildə dövlət başçısının tövsiyəsi ilə Qafqaz Müsəlmanları İdarəsi nəzdində yaradılmış Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzi artıq İspaniya və Almaniyada uğurlu beynəlxalq konfranslar təşkil edib. Vyanada təşkil edilən konfrans da bu qəbildən növbəti nüfuzlu tədbirdir.

Təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan bu siyasəti yüksək səviyyədə davam və inkişaf etdirən Prezident İlham Əliyevin fəaliyyəti sayəsində bu gün Azərbaycan dinlərarası, konfessiyalararası, həmçinin məzhəblərarası həmrəyliyin, milli birliyin, mənəvi vəhdətin, dini-mədəni müxtəlifliyin nadir nümunəsidir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın dünya miqyasında mədəni sahədə çox uğurlu fəaliyyəti, milli-mənəvi irsimizi ən yüksək səviyyədə təbliği ilə yanaşı, ümumbəşəri dəyərlərə diqqət və qayğısı Azərbaycanın bu istiqamətdə söz sahibinə çevrilməsində mühüm rola malikdir.



Şeyxülislam A.Paşazadə çıxışında deyib ki, Azərbaycan uzun illər davam edən, regionda və dünyada sülhə təhdid olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində yaranmış problemin ərazi bütövlüyümüz çərçivəsində həllini istəyir, Ermənistan tərəfindən BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə əməl olunmasını tələb edir və ATƏT-in Minsk qrupunun sülhyaratma missiyasından real nəticə gözləyir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında bildirib ki, hazırda dünya miqyasında dini ayrı-seçkiliyin gücləndiyi, bəzən dini zəmində qarşıdurmaya bilərəkdən rəvac verildiyi dövrdə yaşayırıq. Bu səbəbdən dini dözümlülüyün, tolerantlığın hakim mövqe tutması, dinlərarası əməkdaşlıq və bəşəri həmrəylik mühüm əhəmiyyət daşıyır.



Komitə sədri deyib ki, Azərbaycan xalqı müxtəlif dini inancların birgəyaşayış ənənələrini zənginləşdirərək bütün dünya üçün örnək ola biləcək dini tolerantlıq modelini yaradıb. Ümummilli lider Heydər Əliyevin siyasəti nəticəsində Azərbaycanda bu münasibətlərin beynəlxalq hüququn normaları müstəvisində tənzimlənməsi, konfessiyalar arasında dözümlülük mühitinin qorunub saxlanması üçün hüquqi baza yaradılıb. Azərbaycanda dövlət-din münasibətləri modeli Prezident İlham Əliyev tərəfindən zamanın tələblərinə uyğun olaraq daha da təkmilləşdirilib.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, KAİCİİD Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin Baş katibi Feysəl bin Muammar, Cenevrə İnsan Hüquqları və Qlobal Dialoq Mərkəzinin icraçı direktoru İdris Cəzairi, Birləşmiş Ərəb Əmirlikləri Prezidentinin dini işlər üzrə müşaviri Əli Əbdürrəhman əl-Haşim, Misirin dini işlər üzrə parlament komitəsinin sədri Usama əl-Abd, BMT Baş katibinin müavini Rəşid Xalikov, BMT Baş katibinin müavini, təşkilatın Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Angel Moratinos, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Akif Əlizadə, Konstantinopol Patriarxlığının Ekzarxı, KAİCİİD Direktorlar Şurasının üzvü Emmanuel Adamakis, Moskva və Bütün Rusiyanın Patriarxi Kirillin xüsusi nümayəndəsi Filaret, Azərbaycanın Xarici İşlər nazirinin müavini Ramiz Həsənov, Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov bildiriblər ki, Azərbaycan çoxmillətli və çoxdinli bir dövlətdir və dini münasibətlərini multikulturalizm siyasəti çərçivəsində nizamlayır.



Prezident Administrasiyasının rəsmisi Etibar Nəcəfovun və Milli Məclisin komitə sədri Səməd Seyidovun moderatorluğu ilə davam edən konfransda digər çıxış edənlər dini tolerantlığın gücləndirilməsi ilə yanaşı, dünyada yoxsulluğa qarşı mübarizə, dinlərarası və mədəniyyətlərarası dialoqun inkişafı üçün yeni strategiyaların hazırlanması, gənc nəslin təhsilli yetişməsi və gələcəyə inamlı olması istiqamətində fəaliyyətin gücləndirilməsini vacib hesab ediblər.

Sonda beynəlxalq konfransda yekun sənəd - Vyana Bəyannaməsi qəbul edilib. Sənəddə qeyd olunur ki, müasir dünyada humanist ideyaların təşviqi və multikultural həyat tərzinin təbliği baxımından önəm kəsb edən belə forumların davamlı keçirilməsi olduqca aktual və zəruridir.

Konfransın keçirildiyi sarayın foyesində Azərbaycandakı tolerantlığa, ölkəmizin tarixinə və mədəniyyətinə həsr olunan kitablardan ibarət guşə təqdim edilib.

# Azərbaycan Respublikasında dövlət qulluğu sisteminin əhəmiyyəti və mahiyyəti

**Bu gün Azərbaycanda demokratik ölkələrin zəngin təcrübəsinə əsaslanan dövlət idarəçilik sistemi yaradılıb. Sevindirici haldır ki, dövlət idarəçilik sistemimiz üçün xeyli peşəkar və həm də milliruhlu kadrlar hazırlanıb. Odur ki, cəmiyyət həyatının, demək olar ki, bütün sahələrində yüksəksəviyyəli kadr potensialımız mövcuddur.**



Ümummilli lider Heydər Əliyevin sovet hakimiyyəti zamanı 1969-cu ildə dövlətin ali rəhbərliyinə gəldikdən sonra kadr siyasətində həyata keçirdiyi tədbirlərin milli dövlətçilik baxımından xüsusi əhəmiyyəti vardır. Azərbaycan Kommunist Partiyasının birinci katibi kimi, ulu öndər Heydər Əliyev yüksək idarəetmə postlarına azərbaycanlıları çəkməklə, yenidən milliləşdirmə siyasəti apardı.

Ümummilli Liderin əsasını qoyduğu dövlət idarəçiliyi sistemində milli kadr potensialının formalaşdırılmasında gördüyü işlər, həmçinin müstəqil Azərbaycanda müasir dövlət quruculuğu prosesinin tərkib hissəsi kimi, dövlət qulluğu sisteminin formalaşdırılması və inkişafı, bu sahədə hüquqi bazanın yaradılması istiqamətində mühüm tarixi xidmətləri danılmazdır.

Dövlət qulluğunun inkişafı və kadrların yetişməsi məhz ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Müstəqil Azərbaycanın qurucusu Ulu Öndər ikinci dəfə hakimiyyətə gəldikdən sonra, bilavasitə onun rəhbərliyi ilə hazırlanıb ümumxalq səsverməsi ilə qəbul edilən yeni Konstitusiyadan sonra respublikanın, demək olar ki, bütün normativ-hüquqi aktları yenidən qəbul edilib. Bunlardan biri də 2000-ci il 21 iyul tarixli Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilən Dövlət Qulluğu Haqqında Qanundur. Bu qanunda Azərbaycanın dövlətçiliyi tarixində ilk dəfə olaraq konkret surətdə bilavasitə "dövlət qulluğu" və "dövlət qulluqçusu" məfhumlarının nədən ibarət olduğu göstərilib, dövlət qulluqçusunun hüquq və vəzifələri qanunvericilik yolu ilə təsbit edilib. Bu qanun qəbul edildikdən sonra, ona 13 fevral 2001-ci il, 2 iyul 2002-ci il və 3 dekabr 2002-ci il tarixli qanunlarla müxtəlif dəyişikliklər edilərək, əsas müddəalarından irəli gələn normativ aktlar təsdiq edilib, bütövlükdə, dövlət qulluğu ilə əlaqədar 11 qanun qəbul edilib, 21 fərman verilib. Qanuna ən son əlavə və dəyişikliklər 25 yanvar 2019-cu il tarixdə edilib.

Ümummilli lider Heydər Əliyevin dövlətçilik ideyalarının elmi-nəzəri əsasları təkcə bu gün üçün deyil, gələcək üçün də çox əhəmiyyətlidir. İllər keçdikcə, biz bunu daha aydın görür və dərk edirik. Heydər Əliyevin idarəçilik məharəti çox zəngin təcrübə məktəbi, tükənməz bir xəzinədir. Gələcək nəsillər bu tükənməz təcrübədən hələ çox bəhrələnəcəklər.

Ulu öndər Heydər Əliyev özünün çox böyük təşkilatçılıq məharəti və çoxcəhətli səmərəli fəaliyyəti ilə idarəçilik elmini təkcə əməli cəhətdən deyil, həmçinin nəzəri baxımdan da zənginləşdirib. Bütün bunlar dünya təcrübəsi üçün də faydalı olduğundan, beynəlxalq əhəmiyyətə malik tükənməz sərvətdir. Biz bu sərvətlə fəxr etməklə yanaşı, onu qoruyub saxlamalı və daim bu xəzinədən bəhrələnməliyik.

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan və bu gün cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən kadr siyasəti dövlətçiliyimizin bütün sahələrində yenidüşüncəli, savadlı, işgüzar, bacarıqlı, safmənəviyyatlı, yüksək təşkilatçılıq və informasiyadan istifadə etmək qabiliyyətinə malik kadrların hazırlanmasına, onların cəsarətlə seçilib irəli çəkilməsinə böyük zəmin yaradır.

Eyni zamanda, ölkəmizdə aparılan gənclər siyasəti bu gün Azərbaycan gəncliyinin önündə böyük qapılar, yollar açır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsidir ki, ölkəmizdə yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır. Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayırlar. Ölkəmizin zəngin resursları gənclərimizin inkişafı üçün münasib şərait yaradır. Dövlətin gənclərə dəstək və diqqət göstərməsi Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissini artırır. İndi əsas vəzifə gənclərin bu imkanlardan layiqincə yararlanıb, həm öz inkişafını təmin etmək, həm də dövlətimizin mənafeyini etibarlı şəkildə müdafiə edən layiqli vətəndaş kimi formalaşmaq üçün ciddi iradə ilə çalışmalarıdır.

Dövlət qulluğu üçün mütəxəssislərin hazırlanması dövlətin yüksək peşəkarlığa malik idarəetmə kadrlar korpusunun formalaşmasına yönəlmiş siyasətin mühüm tərkib hissəsinə çevrilir. Dövlət qulluğu üçün kadr hazırlığı sistemi, bütövlükdə ölkənin təhsil sistemi qarşısında idarəetmə sahəsində yüksəkixtisaslı və peşəkar kadrların yetişdirilməsi kimi mühüm məsələni qoyur.

Bu kadrların peşəkarlığının, səriştəliliyinin yüksək olmasından ölkənin, nəinki bugünü, həmçinin gələcəyi də asılıdır. Bu baxımdan təbiidir ki, kadrların nəzəri və praktiki hazırlığı məsələlərinə olan tələb də artır. Hazırlanan kadrlar dəyişilən vəziyyətdən baş çıxarmağı, vəzifələri konkret şəraitə uyğun müəyyənləşdirməyi, müstəqil qərarlar qəbul edərək onları həyata keçirməyi bacarmalıdırlar. Buna görə də dövlət qulluğunda peşəkarlığın artırılmasına təkan verən amillər müasir idarəetmə formaları və sistemlərinin necə tətbiq edilməsindən asılıdır. Tətbiq olunan yeni idarəetmə formaları işçilərin həmin forma və metodları mənimsəməsinə, bilik və bacarıqlarını artırmalarına, iş yerini, mövqeyini qorumaq, vəzifə pillələrində irəliləmək üçün müasir tələblərə uyğunlaşmalarına səbəb olur.

Dövlət qulluğunun düzgün təşkili dövlət qulluqçularının peşəkarlıq səviyyəsini gündən-günə yüksəltməyə zəmin yaradır. Hazırda respublikada dövlət qulluqçularının peşəkarlığını artırmaq üçün bütün dövlət qurumlarında böyük işlər görülür.

Digər bir məsələ isə dövlət qulluğunda bu vəzifələrə uyğun kadrların hazırlanması, onların səriştəliliyi, peşəkarlığının artırılmasıdır. Təbiidir ki, hər bir ölkənin, həmçinin Azərbaycanın təhsil sistemi üçün kadrların hazırlığı məsələsi xüsusi aktuallıq kəsb edir. Belə ki, Azərbaycanda demokratik hüquqi dövlət quruculuğu prosesləri sürətləndikcə, dövlət müstəqilliyimiz möhkəmləndikcə, iqtisadiyyatımızın inkişaf sürəti artdıqca, ölkədə idarəetmə sisteminin daha da təkmilləşdirilməsi, onun səmərəliliyinin yüksəldilməsi məsələləri ön plana çıxır.

Dövlət idarəçiliyinin səmərəliliyi ixtisaslı kadrların hazırlanması və qulluğa cəlb olunması ilə təmin edilir. Belə ki, dövlət orqanlarının keyfiyyətli və səmərəli fəaliyyəti əhəmiyyətli dərəcədə dövlət qulluqçularının səriştəsindən, bacarığından, ixtisas səviyyəsindən asılıdır.

Hazırda ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesində dövlət qulluğunun təşkili tamamilə yeni prinsiplərə əsaslanır. Dövlətlə vətəndaş arasında inam, etimad bərqərar olub. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu və bu gün Prezident İlham Əliyevin uğurla davam etdirdiyi dövlət qulluğu siyasəti qanunçuluq və hesabatlılıq, şəffaflıq və müsabiqə, bərabərlik və cavabdehlik prinsiplərinə əsaslanan dövlət idarəçiliyi sisteminin daha səmərəli inkişaf etdirilməsinə xidmət göstərir. Bu prinsiplər dövlət qurumları və bu qurumlarda çalışan dövlət qulluqçularının qərar və fəaliyyətinin normativ-hüquqi aktlara söykənməsini; bu barədə ictimaiyyətə ətraflı məlumat verilməsini; görülən işlərin nəticəsinin keyfiyyətə görə qiymətləndirilməsini; dövlət qulluğuna qəbulun şəffaflıq və müsabiqə əsasında aparılmasını; qulluq borcunun yerinə yetirilməsi zamanı dövlət qulluqçusunun və onun çalışdığı dövlət orqanının cavabdehlik daşımasını əhatə edir. Qeyd edilənlər öz növbəsində təsdiqləyir ki, Prezident İlham Əliyevin dövlətçilik təcrübəsində siyasi varislik ənənələrinin davamı, mütərəqqi inkişaf meyillərinin gücləndirilməsi ideyası üstünlük təşkil edir.

Üstünlüyü, obyektiv xarakteri və alternativsizliyi ümummilli lider Heydər Əliyevin hakimiyyətdə olduğu illər ərzində dəfələrlə öz təsdiqini tapmış bu siyasi kursun davamlılığının təmin olunması Azərbaycanın dövlətçilik əsaslarının daha da möhkəmləndirilməsinə, müstəqilliyimizin əbədiliyinə, dövlətin hərtərəfli yüksəlişinə ən etibarlı təminatdır. Bu gün sözügedən siyasi kursu layiqincə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan inkişafında böyük uğurlara imza atmaqla, dövlət idarəçiliyi sahəsində də özünəməxsus, dünya tələblərinə cavab verən, eyni zamanda, daim dinamik inkişafda olan, həmişə irəliləyən bir sistem formalaşdırmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yüksək diqqət və qayğısı ilə yaradılan Azərbaycan İlahiyyat İnstitutunun qarşısında duran əsas vəzifələrdən biri dini fəaliyyətin təşkili sahəsində peşəkar kadrların hazırlanmasıdır. Azərbaycan İlahiyyat İnstitutu hədəflərinə çatmaq üçün bütün imkanlarını səfərbər edərək səylə çalışır. Ali təhsil müəssisəsi tələbələrin bilik və bacarıqlarının artırılması istiqamətində mövcud bütün imkanlardan yararlanır. Gənc nəslin yad təsirlərdən qorunması, onları xalqımızın adət-ənənələrinə, dövlətə və Vətənə sədaqət ruhunda tərbiyə edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

Ümummilli lider Heydər Əliyevin bizə irs qoyduğu bu zəngin ənənəyə və beynəlxalq təcrübəyə əsaslanaraq, idarəçilik mədəniyyətimizi daim artırmalı, onu zənginləşdirməli, yeniləşən dünyamızın tələblərinə cavab verən kadr potensialımızı gücləndirməliyik. Unutmamalıyıq ki, ölkəmizin bugünü və gələcəyi kadrların peşəkarlıq səviyyəsindən çox asılıdır. Heydər Əliyevin dövlət idarəçilik ideyaları, onun zəngin idarəçilik məktəbi bizə bunu tövsiyə edir, bunları öyrədir.

**Ceyhun Valehoğlu**

# "Heydər Əliyev Azərbaycan xalqının qurtuluş mübarizəsinin qalibidir"





**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK), Azərbaycan İlahiyyat İnstitutu (AİI) və AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun birgə təşkilatçılığı ilə 14 iyun 2019-cu il tarixdə 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş "Heydər Əliyev Azərbaycan xalqının qurtuluş mübarizəsinin qalibidir" mövzusunda elmi konfrans keçirilib.**

Öncə konfrans iştirakçıları Azərbaycan İlahiyyat İnstitutunun kitabxanasında AİI və AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun birgə təşkil etdikləri ümummilli lider Heydər Əliyevin və Azərbaycan Prezidenti cənab İlham Əliyevin həyat və fəaliyyətini əks etdirən və müxtəlif tarixi mövzularda kitablardan ibarət sərgi ilə tanış olublar. AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu 300 adda 2 000 kitabı İnstitunun kitabxanasına hədiyyə edib.

Konfransda Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, DQİDK sədri Mübariz Qurbanlı, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov, AİI rektoru Ceyhun Məmmədov və digər məsul şəxslər iştirak ediblər.

AİI rektoru Ceyhun Məmmədov elmi konfrans iştirakçılarını salamlayıb. Ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində və müstəqilliyimizin qorunmasında tarixi xidmətlərindən bəhs edib. Ümummilli Lider, müstəqil Azərbaycan Dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin yenidən hakimiyyətə qayıtmasının xalqımızın çoxəsrlik tarixinə taleyüklü möhtəşəm siyasi hadisə kimi daxil olduğunu vurğulayıb.

AİI rəhbəri əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-din münasibətlərinin inkişaf etdirilməsi istiqamətində aparılan işlər, ölkəmizin inkişafında, milli-mənəvi dəyərlərin zənginləşdirilməsində həyata keçirilən tədbirlər haqqında məlumat verib. Rektor bildirib ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müdrikliklə irəli sürdüyü AZƏRBAYCANÇILIQ ideologiyası həyat tərzimizdə, əxlaqımızda, mənəviyyatımızda, dilimizdə, dinimizdə, ədəbiyyatımızda, bir sözlə, maddi və mənəvi mədəniyyətimizin bütün sahələrində istiqamətləndirici məfkurəmiz olmalıdır.

Rektor daha sonra qeyd edib ki, Azərbaycanın dünya ölkələri sırasında öz layiqli yerini tutması və milli-mənəvi dəyərlərimizin qorunmasında, xüsusilə, tolerantlığın və multikultural ənənələrin inkişaf etdirilərək dünyaya çatdırılmasında ulu öndər Heydər Əliyev siyasi kursunun davamçısı Prezident cənab İlham Əliyevin xidmətləri də misilsizdir.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı 15 İyun - Qurtuluş Gününü milli müstəqil dövlətimizin həyatında, bütövlükdə, Azərbaycan tarixində müstəsna yer tutan günlərdən biri kimi xarakterizə edib. Mübariz Qurbanlı bildirib: "Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı milli müstəqilliyimizin əbədiliyinin təminatı demək idi".

M. Qurbanlı qeyd edib ki, ulu öndər Heydər Əliyev o şəxsiyyətlərdəndir ki, bir tarix, salnamə yaratmış, zamanın axarını nizamlamaq qüdrətinə sahib olmuşdur. Azərbaycanın müstəqil dövlət kimi mövcudluğunun qorunub saxlanılması, inkişafı, ölkəmizdə sabitlik və həmrəyliyin təmin olunması bilavasitə Ulu Öndərin adı ilə bağlıdır. Hazırda Prezident cənab İlham Əliyev təməli Ümummilli Lider tərəfindən qoyulmuş iqtisadi və siyasi fəaliyyət strategiyasını uğurla davam etdirir.

DQİDK-nın sədri vurğulayıb ki, ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı xalqımız tərəfindən yüksək dəyərləndirilir.

Azərbaycanda dövlətin himayəsi altında dini təhsil verən belə bir İnstitutun yaradılmasına ehtiyac oduğunu bildirən M.Qurbanlı ali təhsil müəssisəsinin yüksəkixtisaslı kadrların hazırlanması üçün əlverişli təhsil mühiti yaradacağını qeyd edib.

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov müasir müstəqil dövlətimizin yaranmasında, inkişafında və beynəlxalq aləmdə tanıdılmasında Ümummilli Liderin əvəzsiz rolundan bəhs edib. Vurğulayıb ki, bu gün Azərbaycanın inkişaf yolu ümummilli lider Heydər Əliyev dühasının işığında aydınlaşır və millətin gələcəyinin daha da parlaq olması üçün möhkəm və sağlam təməllərə əsaslanır.

Akademik Y.Mahmudov ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə respublikada ikinci dəfə hakimiyyətə gəlişindən sonra müstəqil Azərbaycanın bütün istiqamətlərdə sürətli inkişafa nail olduğunu nəzərə çatdırıb.

Akademik İlahiyyat İnstitutunun yaradılmasını ölkəmiz üçün xeyli əhəmiyyətli hadisə olduğunu vurğulayıb, yüksəkixtisaslı dinşünas və islamşünas kadrların hazırlanması baxımından bu elm ocağının fəaliyyətini yüksək qiymətləndirib.

## Azərbaycan İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədovun tələbələrə və onların valideynlərinə MÜRACİƏTİ

11 iyun 2019-cu il tarixdə rektor Ceyhun Məmmədov tələbələrə və onların valideynlərinə müraciət ünvanlayıb.

İnstitut rəhbəri valideyn, KİV, qeyri-hökumət təşkilatları və digər ictimaiyyət nümayəndələrini təşkil olunacaq "Açıq qapı" günlərində iştirak etməyə, imtahan sessiyasını yaxından izləməyə dəvət edib. Bildirib ki, hər bir rəy və təklif bizim üçün çox dəyərlidir.

Müraciətdə deyilir ki, AİI-də imtahanlar ictimaiyyətə açıq keçirilir. İmtahan sessiyası dövründə valideynlərin, ictimaiyyət və media nümayəndələrinin iştirakı ilə "Açıq qapı" günləri təşkil olunacaq.

Müraciətdə, həmçinin bildirilir ki, 2018-2019-cu tədris ili yaz semestri imtahan sessiyasının mövcud qaydalara uyğun təşkil edilməsi, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığın və obyektivliyin təmin edilməsi, imtahan sessiyasının mövcud normativ sənədlər əsasında keçirilməsi məqsədilə təhsil müəssisəsində İmtahan Qərargahının yaradılması, bu qərargaha daxil olan hər bir şikayətin qısa müddətdə operativ araşdırılması üçün lazımi tədbirlər görülüb. Eyni zamanda, imtahanlarda şəffaflığın təmin edilməsi üçün ictimaiyyət nümayəndələri və tələbələrin valideynlərinin iştirakına şərait yaradılması məqsədilə müvafiq tədbirlər həyata keçirilib.

Müraciətdə sessiya başlamazdan əvvəl imtahanların şəffaf və obyektiv keçirilməsi məqsədilə fakültə dekanı, kafedra müdirləri qarşısında konkret vəzifələrin müəyyənləşdirildiyi qeyd olunub. Sessiyanın gedişi zamanı imtahanların nəticəsindən yarana biləcək narazılıqların araşdırılması və həll edilməsi məqsədilə qərargah və onun nəzdində "Qaynar xətt" yaradılıb. İnstitutun binasında müraciət və təkliflər qutuları asılıb. Bununla yanaşı, İnstitut rəhbərliyi də imtahan prosesini müşahidə edəcək və tapşırıqların verəcək.

Müraciətdə daha sonra deyilir ki, şəffaflığın və obyektivliyin təmin edilməsi məqsədilə rektora və prorektorlara, İctimai Nəzarət Şurasına, İmtahan Qərargahına, Apelyasiya komissiyasına, AİI-nin rəsmi "Facebook" səhifəsinə birbaşa müraciət etmək imkanları təmin edilib.

İmtahanların ictimaiyyətə açıq təşkil olunduğunu vurğulayan C. Məmmədov sessiyaya nəzarətin aparıcı təhsil ekspertlərindən, qeyri-hökumət təşkilatlarından, media nümayəndələri və bir tələbədən ibarət İctimai Nəzarət Şurası tərəfindən həyata keçirildiyini də nəzərə çatdırıb.

AİI rəhbərliyi yaz imtahan sessiyasında bütün tələbələrə müvəffəqiyyət arzulayıb.

## Zaqatalada din xadimləri birgə Vəhdət namazı qılıblar



Mənəvi Dəyərlərin Təbliği Fondunun təşəbbüsü ilə "Vəhdət dəyərimizdir" layihəsi çərçivəsində Zaqatala rayonunda təşkil olunan seminar öz işini davam etdirir.

Fonddan bildiriblər ki, seminar çərçivəsində Bakı, Sumqayıt şəhərlərindən və Abşeron, Zaqatala, Balakən, Qax rayonlarından olan din xadimləri Zaqatala rayonu Yuxarı Tala kənd məscidində birgə namaz qılıblar.

Seminarın ikinci günündə AMEA akademik Z.M.Bünyadov ad. Şərqşünaslıq İnstitutunun elmi işçisi, ilahiyyat üzrə fəlsəfə doktoru Aslan Həbibovun "İslam tarixində məzhəblərarası münasibətlər və vəhdət məsələsi", Bakı İslam Universitetinin Zaqatala şöbəsinin müdir müavini, ilahiyyat üzrə fəlsəfə doktoru Anar Qurbanovun "İslamda vəhdətə fiqhi baxış" mövzusunda mühazirələri dinlənilib.

İyunun 19-da və 20-də seminar iştirakçılarının Heydər Əliyev adına Xatirə parkı, Heydər Əliyev Mərkəzi, Zaqatala qalası, Dədə Qorqud meydanı, Əliabad Cümə məscidi və Əliabad İslam Mədrəsəsi ilə tanışlığı, Car kənd məscidini ziyarət etmələri nəzərdə tutulub.

# Yay imtahan sessiyasının gedişatı izlənib



Azərbaycan İlahiyyat İnstitutunun (AİI) rəhbərliyi yanında İctimai Nəzarət Şurasının üzvləri və KİV nümayəndələri 24 iyun 2019-cu il tarixdə yay imtahan sessiyasının gedişatını izləyiblər. Onlar imtahan keçirilən auditoriyalarda olub, ayrı-ayrı fənlər üzrə yay imtahan sessiyasını müşahidə ediblər. Şura üzvləri və KİV təmsilçiləri, həmçinin tələbələrin sessiyaya hazırlığı, sualların tərtibatı, imtahan prosesi barədə müəyyən söhbətlər aparıblar.

AİI rektoru Ceyhun Məmmədov imtahanların gedişi barədə Şura üzvlərinə və KİV təmsilçilərinə ətraflı məlumat verib, media nümayəndələrini maraqlandıran sualları cavablandırıb. Rektor bildirib ki, 2018-2019-cu tədris ilinin yay imtahanlarının müvafiq təlimatlara və əsasnamələrə uyğun keçirilməsini təmin etmək məqsədilə yarana biləcək mənfi halları dərhal araşdırmaq və müvafiq tədbirlər görmək, habelə sessiyanın şəffaf, normativ sənədlərə uyğun təşkili üçün Operativ Qərargah yaradılıb. İmtahanların bir qayda olaraq yazılı, zərurət yarandığı hallarda şifahi formada keçirilməsi barədə Nəzarət Şurasının üzvləri məlumatlandırılıb. İmtahan sessiyasının mövcud qaydalara uyğun təşkili məqsədilə İnstitut rəhbərliyi tərəfindən xüsusi komissiyanın yaradıldığı, imtahanlara nəzarətin müəllim-koordinatorlar tərəfindən həyata keçirildiyi qeyd edilib. İmtahanlar arasında 2 gündən az olmayan müddətin təyin edildiyi, imtahana ayrılan zamanın 2 saat müəyyənləşdirildiyi barədə məlumat verilib.

Məlumat üçün bildiririk ki, sessiya boyunca tələbələrin biliyinin qiymətləndirilməsində obyektivliyin təmini, şəffaflığın qorunması məqsədilə ictimaiyyət nümayəndələrinin müşahidəçi qismində iştirakı üçün lazımi şərait yaradılıb. İmtahan otaqlarının qarşısında müraciət və təklif qutuları asılıb.

Şuranın tərkibinə Konstitusiya Araşdırmaları Fondunun rəhbəri, İnsan Haqları Birgə Qrupun üzvü Əliməmməd Nuriyev, təhsil üzrə ekspert, professor Şahlar Əsgərov, təhsil üzrə ekspert Nadir İsrafilov, "İki sahil" qəzetinin Baş redaktoru Vüqar Rəhimzadə, "Trend" İnformasiya Agentliyi Baş direktorunun korporativ inkişaf üzrə müavini Arzu Nağıyev, İctimai Televiziya və Radio Yayımları Şirkətinin İctimai-Siyasi Proqramlar Departamentinin direktoru Anar Yusifoğlu, Modern.az saytının rəhbəri Elşad Eyvazlı, "525-ci qəzet"in müxbiri Sevinc Qarayeva daxildir.

İctimai Nəzarət Şurasının əsas məqsədi AİI-nin fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi; İnstitut ilə ictimaiyyət arasında səmərəli qarşılıqlı əlaqələrin təşkili; aşkarlığın və şəffaflığın təmin olunması; əməkdaşların və təhsil alanların hüquqlarının müdafiəsi və fəaliyyətinin təkmilləşdirilməsi üçün təkliflərin verilməsindən ibarətdir.

# Tələbələrlə görüş



3 iyun 2019-cu il tarixdə yay imtahan sessiyası ilə əlaqədar tələbələrlə görüş keçirilib. İyunun 3-dən 28-dək davam edəcək sessiya təsdiq olunmuş imtahan cədvəlinə uyğun olaraq yazılı, zərurət yarandıqda isə şifahi keçiriləcək.

AİI rektoru Ceyhun Məmmədov imtahanlardan əvvəl tələbələrlə görüşüb, onlara qiymət üçün deyil, bilik üçün oxumağı tövsiyə edib və gəncləri elm, savad, bilik nümayiş etdirməyə səsləyib: "İlahiyyat İnstitutunun tələbələri olaraq, üzərinizə düşən məsuliyyət həm ağır, həm də şərəflidir. Sizə bu şərəfli yolda nailiyyətlər arzulayıram".

Rektor qeyd edib ki, imtahanlara hazırlıq maksimum səviyyədə təşkil olunub. Gənclərin biliyinin obyektiv qiymətləndirilməsi qarşıya məqsəd qoyulub. İmtahanlar keçirilərkən təhlükəsizlik tədbirlərinin görüləcəyi, cavabların müəyyən olunmuş meyarlar əsasında qiymətləndiriləcəyi diqqətə çatdırılıb.

Rektor tələbələri narahat edən məsələlərlə maraqlanıb, onların imtahan sessiyasını uğurla başa vuracaqlarına əminliyini ifadə edib. Tələbələrə sessiya günlərində imtahanların gedişatını şəxsən izləyəcəyini, hər hansı bir problem yaranacağı təqdirdə, ona müraciət edə biləcəklərini bildirib.

Daha sonra İlahiyyat fakültəsinin dekanı Mirniyaz Mürsəlov tələbələrə imtahanlarda uğurlar arzulayıb. Onları imtahan prosesində fəal iştiraka, imtahanlar zamanı yarana biləcək problemlərin aradan qaldırılması üçün yaxından köməklik göstərməyə dəvət edib. M.Mürsəlov gənclərə öz tövsiyələrini verərək bildirib ki, imtahan gedən zaman biliklərindən maksimum yararlanaraq, mövzunu tam əhatə etməyə çalışsınlar.

Qeyd edək ki, 2018-2019-cu tədris ili yay imtahan sessiyasını Təhsil Nazirliyinin mövcud qaydalarına uyğun təşkil etmək, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı və obyektivliyi təmin etmək məqsədi ilə tənzimləyici əmr imzalanıb.

# İmtahanlar davam edir



Azərbaycan İlahiyyat İnstitutunda 4 iyun 2019-cu il tarixdə yay imtahan sessiyasına start verilib. İyunun 28-dək davam edən sessiya təsdiq edilmiş imtahan cədvəlinə uyğun olaraq yazılı və şifahi formada keçirilir.

Sessiya dövründə tələbələrin biliyinin obyektiv qiymətləndirilməsi, şəffaflığın təmin edilməsi prioritet seçilib. İmtahanların keçirilməsi və cavabların müəyyənləşdirilmiş meyarlar əsasında qiymətləndirilməsi istiqamətində zəruri tədbirlər görülüb.

Qeyd edək ki, sessiyanın gedişi zamanı imtahanların nəticəsindən yarana biləcək narazılıqların araşdırılması və həll edilməsi məqsədilə Operativ Qərargah yaradılıb. Qərargaha daxil olan müraciətlərin, hər bir şikayətin qısa müddətdə çevik şəkildə araşdırılıb, lazımi tədbir görülməsi nəzərdə tutulub.

İnstitutun foyesində müraciət və təklif üçün qutular qoyulub. Tələbələrə yarana biləcək problemlərin aradan qaldırılması üçün yaxından köməklik göstərilməlidir.

Sessiya dövründə AİI-də imtahanlar ictimaiyyətə açıq keçiriləcək. İmtahan sessiyası dövründə valideynlərin, ictimaiyyət nümayəndələrinin iştirakı ilə "Açıq qapı" günlərinin keçirilməsi nəzərdə tutulub.

Ali təhsil müəssisəsinin kitabxanasında tələbələrin imtahanlara hazırlığı üçün lazımi şərait yaradılıb. Onlar fasiləsiz internetlə təchiz olunmuş kompyuterlərdən istifadə edirlər. İmtahanlar arasında müddət isə iki gün intervalı ilə keçirilib.

# "Azərbaycan həqiqətlərinin xaricdə təbliği" mövzusunda seminar



13 iyun 2019-cu il tarixdə "Roma Sapienza" Universitetinin siyasi elmlər və Avropa tarixi üzrə doktorantı, Azərbaycan-İtaliya Gənclər Assosiasiyasının (AİGA) həmsədri Emin Rüstəmovun təqdimatında "Azərbaycan həqiqətlərinin xaricdə təbliği" mövzusunda seminar təşkil olunub.

AİI Dillər və ictimai fənlər kafedrasının müdiri, dosent İlkin Əlimuradov tədbir iştirakçılarını salamlayaraq bildirib ki, təhsil müəssisəsi tələbələrin dünyagörüşünün, intellektual səviyyəsinin, mənəvi dünyasının zənginləşdirilməsi, elmi axtarışlara sövq edilməsi, vətənpərvərlik hisslərinin gücləndirilməsi, mütaliə, sosial məsuliyyət vərdişlərinin aşılanması, o cümlədən, fərdi özünüifadə bacarıqlarının inkişaf etdirilməsi üçün mütəmadi olaraq müxtəlif mövzularda seminarlar, "dəyirmi masa"lar, görüşlər təşkil edir. İnstitutda ötən dövr ərzində maarifləndirmə istiqamətində xeyli iş görüldüyünü bildirən İ.Əlimuradov mövzunun əhəmiyyətinə toxunaraq, AİI-nin təhsilin keyfiyyətinə xüsusi önəm verdiyi ilə yanaşı, tələbələrin sosial həyatının səmərəli təşkili üçün də səylə çalışdığını vurğulayıb.

"Roma Sapienza" Universitetinin siyasi elmlər və Avropa tarixi üzrə doktorantı, Azərbaycan-İtaliya Gənclər Assosiasiyasının həmsədri Emin Rüstəmov "Azərbaycan həqiqətlərinin xaricdə təbliği" mövzusunda məruzə ilə çıxış edib, AİGA-nın fəaliyyəti haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib. Həmsədr təşkilatın fəaliyyətinə toxunaraq bildirib ki, qurumun əsas məqsədi ölkəmizin təbliği, Qarabağ həqiqətlərinin yerli və dünya ictimaiyyətinə düzgün çatdırılmasıdır.

E. Rüstəmov İtaliyada Azərbaycan diasporunun fəallığının artırılması istiqamətində görülən işlərdən, onun uğurlu fəaliyyətindən bəhs edib. Xaricdə təhsil alan gənclərimizin yaşadıqları ölkələrdə Azərbaycanı fəal təbliğ etmələrinin vacibliyini vurğulayıb. Bildirib ki, hər bir Azərbaycan vətəndaşı xalqına və dövlətinə sadiq olmalıdır. Bu baxımdan, xaricdə təhsil alan tələbələrin də üzərinə məsuliyyət düşdüyünü qeyd edən E.Rüstəmov sosial şəbəkələrdə, gündəlik həyatda ölkəmizi layiqincə təbliğ etməyə, xarici dostlara Vətənimiz haqqında dolğun məlumat verməyə, tələbələri dövlət əhəmiyyətli tədbirlərdə fəal olmağa çağırıb.

# Çin Xalq Respublikasının “Nanjing Hanjia Cultural Exchange” Təşkilatının nümayəndələri ilə görüş



21 iyun 2019-cu il tarixdə Çin Xalq Respublikası Təhsil Nazirliyinin nəzdində fəaliyyət göstərən “Nanjing Hanjia Cultural Exchange” Təşkilatının rəhbəri Ben Bun Duo, region üzrə rəsmi partnyoru, “Clarivate Analytics” bazasının Azərbaycanda təşkil etdiyi Təlim Proqramının rəsmi eksperti, f.f.d. Xəyalə Məmmədova və təşkilatın layihə meneceri dr.Faiq Ağabalıyevin tələbələrlə görüşü təşkil olunub.

Aİİ-nin Dillər və ictimai fənlər kafedrasının müdiri, dosent İlkin Əlimuradov tədbir iştirakçılarını salamlayaraq, İnstitutda tələbələrin dünyagörüşünün, intellektual səviyyəsinin, mənəvi dünyasının zənginləşdirilməsi, elmi axtarışlara sövq edilməsi məqsədilə müxtəlif mövzularda seminarlar, “dəyirmi masa”lar və görüşlər təşkil olunduğuni bildirib. İ.Əlimuradov uğura nail olmaq, qarşıya qoyulan məqsədə çatmaq və sənətinin peşəkarı kimi yetişmək üçün keçirilən tədbirlərin əhəmiyyətini vurğulayıb.

“Nanjing Hanjia Cultural Exchange” Təşkilatının region üzrə rəsmi partnyoru, “Clarivate Analytics” bazasının Azərbaycanda təşkil etdiyi Təlim Proqramının rəsmi eksperti f.f.d. Xəyalə Məmmədova görüşün məqsədi barədə ətraflı məlumat verib. Qeyd edib ki, Çin Xalq Respublikasının universitetlərində istənilən ixtisas üzrə təhsil almaq, həmçinin təlimlərdə iştirak etmək mümkündür. Universitetlərdə Çin dilinin öyrədilməsi tədris edilir. Məqsədimiz Çin mütəxəssislərinin Azərbaycana gəlişini təmin etmək, ikili diplom dərəcələrinin verilməsi istiqamətində universitetlərlə əməkdaşlığı gücləndirməkdir.

Çin Xalq Respublikası Təhsil Nazirliyinin nəzdində fəaliyyət göstərən “Nanjing Hanjia Cultural Exchange” Təşkilatının rəhbəri Ben Bun Duo tədbirin təşkil olunmasında göstərdiyi dəstəyə görə, Aİİ-nin rəhbəriliyinə minnətdarlığını ifadə edib. İki ölkə arasında qədim tarixi olan dostluq münasibətlərinin müasir dövrümüzdə yeni müstəvidə inkişaf etdiyini nəzərə çatdırıb. Ben Bun Duo qloballaşma dövrünün mühüm trendlərindən hesab edilən elmi biliklərin təhsil sistemində inkişafda olduğunu da vurğulayıb. Həmçinin Çinin aparıcı ali təhsil müəssisələrində təhsil almaqla yanaşı, fərqli mədəniyyətin bir parçası kimi yaşamağın, dünyagörüşünü genişləndirməyin, karyera imkanlarını artırmağın və yeni bir dil öyrənməyin faydalarından da bəhs edib.

Təşkilatın layihə meneceri dr.Faiq Ağabalıyev bildirib ki, Çin dünyasəviyyəli yüksək təhsil üçün əlverişli məkana çevrilib. Qeyd edib ki, Çin Hökuməti Amerika Birləşmiş Ştatları, İngiltərə, Fransa və Yaponiya daxil olmaqla, bir sıra ölkələrlə akademik nailiyyətlərin qarşılıqlı tanınması haqqında razılığa imza atıb.

Sonda Çin Təhsil Nazirliyi nəzdində fəaliyyət göstərən “Nanjing Hanjia Cultural Exchange” Təşkilatının nümayəndələri tədbir iştirakçılarının suallarını cavablandırıb.

# Kamil Musəvi ilə görüş



26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə Qarabağ qazisi Kamil Musəvi ilə görüş təşkil olunub.

Tədbiri giriş nitqi ilə açan İnstitutun rektoru Ceyhun Məmmədov mərasim iştirakçılarını əlamətdar bayram münasibətilə təbrik edib, ölkəmizdə güclü, qüdrətli və yüksək döyüş hazırlığına malik ordu quruculuğunun ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib. Rektor qeyd edib ki, Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində son illərdə ordumuzun döyüş qabiliyyəti daha da artırılıb, Azərbaycan regionun ən qüdrətli dövlətinə çevrilib və hər an düşmənə layiqli cavab vermək iqtidarındadır.

C.Məmmədov qeyd edib ki, ölkəmizdə gənclər siyasətinin ən mühüm istiqamətlərindən biri onların vətənpərvər ruhda tərbiyə olunmasıdır. Bu məqsədlə, Azərbaycan İlahiyyat İnstitutunda tələbələrin vətənpərvərlik hisslərinin gücləndirilməsi, onlara milli-mənəvi dəyərlərin aşılanması istiqamətində müxtəlif tədbirlər - konfranslar, “dəyirmi masa”lar, seminarlar, görüşlər həyata keçirilir.

İnstitut rəhbəri vurğulayıb ki, gənclərdə Vətənə, doğma torpağa məhəbbət hissinin yüksəldilməsi, həmçinin müasir dünyamızda qloballaşmanın geniş vüsət aldığı bir zamanda, milli-mənəvi dəyərlərin qorunub saxlanılması xüsusi əhəmiyyət daşıyır.

Kamil Musəvi Aprel döyüşlərini qələbə kimi xarakterizə edərək, gəncləri daima vətənin keşiyində durmağa hazır olmağa səsləyib.

Döyüş tapşırığını yerinə yetirən zaman ağır xəsarətlər almış K.Musəvi keçdiyi döyüş yolundan söhbət açıb. Qarabağ qazisi tələbələrin diqqətinə çatdırıb ki, Vətəni sevməyin, onu qorumağın başlıca yolu dərin biliklərə yiyələnib, savadlı kadr kimi yetişməkdir.

Kamil Musəvi tələbələrin suallarına dolğun cavab verərək, onlarda vətənpərvərlik hissinin daha da gücləndirilməsi üçün dəyərli tövsiyələrini bildirib.

Qeyd edək ki, Qarabağ qazisi Kamil Musəvi döyüş tapşırığını yerinə yetirərkən bir ayağını və bir gözünü itirib. Xidməti vəzifəsini layiqincə yerinə yetirdiyinə görə, “Vətən Naminə” və “General Həzi Aslanov” medalları ilə təltif olunub.

# “Gender əsaslı zorakılıq” mövzusunda təlim təşkil olunub

20 iyun 2019-cu il tarixdə “SOS Uşaq Kəndləri Azərbaycan Assosiasiyası” İB-nin Milli Proqram İnkişaf direktoru, sosioloq Cavid İmamoğlunun təqdimatında BMT-nin Əhali Fondunun (UNFPA Azerbaijan) dəstəyi ilə “Gender əsaslı zorakılıq” mövzusunda təlim təşkil olunub.

Aİİ-nin Dillər və ictimai fənlər kafedrasının müdiri, dosent İlkin Əlimuradov tədbir iştirakçılarını salamlayaraq, Aİİ-də ötən dövr ərzində maarifləndirmə istiqamətində xeyli iş görüldüyünü bildirib. İ.Əlimuradov mövzunun əhəmiyyətinə toxunaraq qeyd edib ki, gender bərabərliyi özü-özlüyündə təkcə mədəni və mənəvi hadisə deyil, həmçinin yoxsulluğun azaldılması, davamlı inkişafın təmin olunması və səmərəli idarəçiliyin qurulması üçün də zəruri şərtlərdəndir. O, gənclər arasında gender əsaslı zorakılıqla mübarizə aparmaq üçün maarifləndirmə tədbirlərinin keçirilməsinin vacibliyini vurğulayıb.



“SOS Uşaq Kəndləri Azərbaycan Assosiasiyası” İB-nin Milli Proqram İnkişaf direktoru, sosioloq Cavid İmamoğlu BMT-nin Əhali Fondunun (UNFPA Azerbaijan) dəstəyi ilə “Gender əsaslı zorakılıq” mövzusunda təlimdə kişilər və qadınlar arasında ayrı-seçkiliyin əsas səbəbləri və onların aradan qaldırılması yolları haqqında məruzə ilə çıxış edib. C. İmamoğlu bildirib ki, müzakirələrdə məqsəd cəmiyyətdə gender zəminində formalaşmış ayrı-seçkiliyi müzakirə etməkdir.

Daha sonra qeyd edib ki, gender əsaslı zorakılıq təkcə qadınlara fiziki güc tətbiq etmək deyil, həmçinin cinsi, psixoloji, emosional basqı və digər təzyiqləri də əhatə edir.

Təlimdə gender məfhumuna aydınlıq gətirilib, müzakirələr interaktiv formada keçirilib. Qeyd olunub ki, zorakılığı anlamaq üçün müxtəlif çalışmalar həyata keçirilir.

Təlimboyu iştirakçılar gender əsaslı zorakılığın başvermə səbəbləri və qarşısını almaq yolları barədə detallı məlumatlara yiyələniblər. Həmçinin gender əsaslı zorakılıq zəminində formalaşmış stereotiplər və miflər ilə tanış olublar.

Təlim tələbələrin və qonaqların maraqlı müzakirələri ilə davam edib.

# Xalq artisti Arif Quliyev ilə görüş



Azərbaycan Respublikasının Xalq artisti Arif Quliyev ilə görüş keçirilib.

Aİİ-nin Dillər və ictimai fənlər kafedrasının müdiri, dosent İlkin Əlimuradov tədbir iştirakçılarını salamlayıb. Gəncliyin sağlamruhlu, savadlı, yüksək mənəvi tərbiyəyə malik olmasının dövlət üçün vacibliyini qeyd edən İ.Əlimuradov tələbələrin intellektual səviyyəsinin, mənəvi dünyasının zənginləşdirilməsi istiqamətində İnstitutun ardıcıl “dəyirmi masa”lar, treninqlər, seminarlar, görüşlər təşkil etməsinin xüsusi önəm daşıdığını vurğulayıb.

İ.Əlimuradov görüşün mahiyyətindən bəhs edib və gənclərin inkişafında mütaliənin, yazarlarla ünsiyyətin, sənət adamları ilə görüşlərin önəmini diqqətə çatdırıb. O, Xalq artistinin həyat və yaradıcılığı barədə ətraflı məlumat verib.

Daha sonra çıxış edən Xalq artisti Arif Quliyev düşüncələrini tədbir iştirakçıları ilə bölüşüb. Kino və teatr səhnəsində göstərdiyi xidmətlər, çəkildiyi filmlər haqqında məlumat verən Xalq artisti bunların gənc nəslin tərbiyəsində əhəmiyyətli rolu olduğunu bildirib. Müxtəlif səpkili və fərqli xarakterli obrazlar yaratdığını qeyd edən A.Quliyev yaradıcılığında hər zaman insanları güldürüb-düşündürməyi qarşısına məqsəd qoyduğunu etiraf edib.

Xalq artisti ali təhsil müəssisəsinin elm və sənət adamları ilə görüş keçirməsini təqdirəlayiq hal kimi qiymətləndirib.

Tədbirin təşkil olunmasında İnstitut rəhbərliyinə və iştirakçılara minnətdarlığını bildirən A.Quliyev yaradıcılıq planlarından danışıb.

Görüş tələbələri maraqlandıran suallarla davam edib.

# Regionun ən güclü hərbi qüvvəsi: Azərbaycan Ordusu

**Azərbaycan Respublikası Prezidentinin 22 may 1998-ci il tarixli Fərmanına əsasən, 26 iyun tarixi Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü elan edilib. Yada salaq ki, bu günün ümumxalq bayramı kimi təsis edilməsinin özünün də bir tarixi var.**



Yüz bir il əvvəlki günlərimizə nəzər salsaq görərik ki, 1918-ci il 26 iyun tarixli Fərmanla Azərbaycan Milli Ordusunun yaradılmasına başlanıldı. Avqustun 1-də Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi Nazirliyi təsis edildi. İstedadlı hərbçi general Səməd bəy Mehmandarov dekabrın 25-də hərbi nazir, general-leytenant Əliağa Şıxlinski nazir müavini təyin olundular. Qısa müddət ərzində yenicə yaradılmış Milli Ordu hissələri Osmanlı dövlətinin sərkərdəsi Nuru Paşanın komandanlığı altında Qafqaz Türk İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik qoşunlarının əsarətindən qurtardı.

Bu hərbi birləşmələr Muğanda və Əsgəranda Milli Hökumətə qarşı baş vermiş qiyamları yatırmaqda yüksək səriştəlilik göstərdi, Qazaxda Azərbaycan sərhədlərini pozmuş erməni nizami ordu hissələrini darmadağın etdi. Azərbaycan Ordusunun Hüseyn xan Naxçıvanski, İbrahim ağa Usubov, Həmid Qaytabaşı, Kazım Qacar, Cavad bəy Şıxlinski, Həbibbəy Səlimov kimi generalları mövcud idi.

1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra, bolşevik hökuməti Milli Ordunu ləğv etdi. Rəhbərlərinin əksəriyyəti Nargin adasına aparılıb güllələndi. Hərbi nazir olmuş general Səməd bəy Mehmandarov və müavini, general Əliağa Şıxlinski həbs olunaraq, Bakı küçələrini süpürməyə məcbur edildilər.

Davam edən sovet hakimiyyəti dönəmində imperiyanın azərbaycanlılara qarşı hərbi siyasəti bir qədər dəyişmişdi. Sovet dövründə Çar üsul-idarəsindən fərqli olaraq, azərbaycanlı gənclər hərbi xidmətə çağırılırdılar. Onlar döyüş üçün nəzərdə tutulmuş hərbi hissələrdə yox, əsasən, tikinti batalyonlarında, intendant bölmələrində, ərzaq və geyimlə təminat sahələrində xidmət edirdilər.

Məqsəd aydın idi - azərbaycanlılar arasında hərb elminə dərindən yiyələnən, müasir silahlarla rəftar etməyi bacaran hərbçilərin yetişdirilməsinə imkan verməmək. Sovet hakimiyyətinin azərbaycanlılara qarşı belə məkrli siyasəti 1969-cu ilə qədər davam etdi. Həmin il iyulun 14-də Azərbaycan rəhbərliyinə gələn Heydər Əliyev "unudulmuş" sahələrin, o cümlədən hərbi sahənin inkişafını hədəf seçdi. H.Əliyevin göstərişinə əsasən, 1971-ci il iyunun 20-də diviziya komandiri olmuş Cəmşid Naxçıvanski adına İxtisaslaşdırılmış Hərbi Məktəb yaradıldı. Dövlət başçımız gərgin fəaliyyəti ilə azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, həmçinin SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul edilməsinə müvəffəq oldu.

Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin milli zabit kadrlarımızın yetişdirilməsində və o dövrdə ali hərbi məktəbləri bitirmiş şəxslərin sonradan Silahlı Qüvvələrimizin formalaşmasında müstəsna rolu oldu. Bu məktəblərdə yetişən Azərbaycan hərbçiləri Birinci Qarabağ müharibəsində misilsiz igidliklər göstərdilər. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra, Milli Ordunun yaradılması günün ən vacib məsələsinə çevrilmişdi.

1991-ci il sentyabrın 5-də Müdafiə Nazirliyinin yaradılması barədə qərarın və həmin ilin oktyabrın 9-da Azərbaycan Respublikasının Ali Soveti tərəfindən Silahlı Qüvvələrin yaradılması haqqında qanunun qəbul edilməsinə baxmayaraq, o dövrün respublika rəhbərliyi bu qərarların həyata keçirilməsi üçün heç bir səy göstərmirdi. Ermənistanın gündən-günə genişlənməkdə olan hərbi təcavüzü Milli Ordunun yaradılması işini sürətləndirməyi tələb edirdi. Lakin ilk vaxtlar yaradılmış hərbi hissələr müxtəlif siyasi qüvvələrin əlində alətə çevrilmişdi, ona görə də vahid komandanlıqdan idarə olunmurdu.

Ordu quruculuğuna yalnız 1993-cü ilin iyunundan sonra başlamaq mümkün oldu. Həmin dövrdən etibarən ölkədəki Silahlı Qüvvələr dövlətin tam nəzarətinə keçdi. Qanunsuz silahlı dəstələr ləğv edildi, vahid komandanlıq yaradıldı. Görülmüş tədbirlər nəticəsində qısa zaman kəsiyində Füzuli və Ağdam rayonlarının bir sıra yaşayış məntəqələri işğaldan azad olundu, cəbhədə təşəbbüs Azərbaycan Ordusunun əlinə keçdi. Bu uğurların müvəqqəti olduğunu düşünən düşmən öz havadarlarının köməyindən və silah-sursatından yararlanaraq, 1994-cü ilin ilk aylarında bütün cəbhəboyu irimiqyaslı hücum əməliyyatlarına başladı. Azərbaycan ordu hissələrinin Füzuli, Beyləqan, Ağdam və Tərtər istiqamətlərindəki ciddi müqaviməti ilə rastlaşan və Azərbaycan əsgərinin qəhrəmanlıq nümunələrinin şahidi olan düşmən cəbhədə atəşkəsə razılıq verdi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədi ilə 1999-cu il yanvarın 20-də Azərbaycan Ali Hərbi Akademiyasının yaradılması haqqında Fərman imzaladı.

Prezidentin 20 avqust 2001-ci il tarixli Fərmanı ilə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırıldı.

Ümummilli Liderin siyasi kursunu uğurla davam etdirən Prezident cənab İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin gücünün artırılması üçün bütün tədbirləri həyata keçirir. Yüksək diqqət və qayğının nəticəsidir ki, ordumuz 2016-cı ilin aprelində baş vermiş dördgünlük müharibədə düşməni geri çəkilməyə məcbur etdi. Nəticədə, Lələtəpə yüksəkliyi, Cocuq Mərcanlı kəndi və iki min hektar ərazi düşmən işğalından azad olundu.

2018-ci ildə isə Naxçıvanın Günnüt kəndi və böyük bir ərazi işğaldan qurtardı. Azərbaycan Silahlı Qüvvələrinin quruculuğu prosesi davam etdirilir və ordumuz inkişaf, təkmilləşmə dövrünü yaşayır.

Xüsusi vurğulamaq lazımdır ki, ordumuz ölkə istehsalı olan silahlarımızla, xarici ölkələrdən alınan ən müasir zirehli texnika, raket sistemi, artilleriya və aviasiya ilə gücləndirilib. Həyata keçirilmiş tədbirlər nəticəsində indi Azərbaycan Ordusu dünyanın 50 ən güclü ordusundan biri hesab olunur. Bizim ordumuz regionun ən güclü və mobil ordusudur. Hərbi gücümüz o səviyyəyə yüksəlib ki, ordumuz 48 saat müddətində bütün Cənubi Qafqazı nəzarət altına ala bilər. Azərbaycan İsraildən, Türkiyədən, Rusiyadan, Pakistandan, Belarusdan və digər ölkələrdən müasir, güclü silahlar alaraq ordumuzun arsenalını zənginləşdirir. Silah ehtiyatımıza uzaq və yaxınmənzilli dağıdıcı raketlər, helikopterlər, qırıcı-bombardmançı təyyarələr, havadan müdafiə sistemləri, kəşfiyyat texnikası, ağır tanklar və piyadaların döyüş maşınları, uzaqvuran artilleriya qurğuları, atıcı silahlar əlavə edilir.

Qürurla deyə bilərik ki, son illər Bakıda keçirilən hərbi paradlar və bölgələrimizdəki təlimlər Ermənistanda vahimə ilə qarşılanır. Üzdəniraq erməni "ideoloqları" və təbliğat maşını dünyaya haray-həşir salırlar ki, Azərbaycan erməni xalqını məhv etməyə çalışır. Təbii ki, biz erməni xalqını qırmağa deyil, işğal edilmiş torpaqlarımızı azad etməyə hazırlaşırıq. Onu da qeyd etməliyik ki, Azərbaycan rəhbərliyinin fəaliyyəti və uğurlu xarici siyasəti nəticəsində, artıq bütün dünya kimin haqlı, kimin haqsız olduğunu yaxşı anlayır. Azərbaycan "informasiya müharibəsi"ndə də Ermənistanı üstələmiş, onun həyasız yalanlarını ifşa etmişdir.

Təbii ki, müzəffər ordumuz işğal olunmuş əraziləri düşməndən azad etməli, ölkənin ərazi bütövlüyünü qorumalıdır. Tarixi varislik ənənəsinə uyğun olaraq, Prezidentin Fərmanı ilə Azərbaycan Xalq Cümhuriyyəti dövründə Milli Ordunun yarandığı 26 İyun Azərbaycan Silahlı Qüvvələri Günü kimi bayram edilir. Əminik ki, gələcəkdə 26 İyun Gününü işğaldan azad edilmiş Qarabağ torpağında keçirəcəyik.

**R.İsmayılqızı**

# İkinci dilin tədrisində motivasiya amili

## OG MANDİNO: "UĞURLUOLMA QƏRARIN KİFAYƏT QƏDƏR GÜCLÜDÜRSƏ, UĞURSUZLUQ SƏNƏ ÜSTÜN GƏLƏ BİLMƏZ"

**Yəqin, hər kəs razılaşar ki, motivasiya amili təkcə ikinci dilin tədrisində deyil, ümumilikdə, təlim-tədris prosesində olduqca önəmlidir. Motivasiya hər hansı bir fəaliyyətin uğurlu olmasında güclü bir element hesab edilir və istənilən məqsədlərə çatmaqda mühüm rol oynayır. Motivasiyası olmayan, yaxud aşağı olan tələbələr məqsədlərinə motivasiyalı tələbələrdən daha az çatırlar. Təhlillər onu göstərir ki, müsbət motivasiyalı və dil öyrənməyə meyilli tələbələr imtahanlarda daha yaxşı nəticə göstərir və dilin tədrisində/öyrənilməsində daha fəal iştirak edirlər.**

Bir sıra insanlar motivasiyasını fərqli şərh edirlər, bu da dilin öyrənməsinin müxtəlif üsullarının mövcudluğundan irəli gəlir. Lakin ən önəmli məqam odur ki, motivasiya istənilən dilin öyrənilməsində açar rolu oynayır.

Motivasiyanı tərif edəndə xarici (ekstrinsik) və daxili (intrinsik) motivasiyanı qeyd etmək lazımdır. Xarici motivasiya müxtəlif xarici amillərin təsirindən yaranır; məsələn: yaxşı qiymət qarşılığında mükafatlandırılma və digər amilləri nümunə göstərmək mümkündür.

Daxili motivasiya xarici motivasiyadan fərqli olaraq, şəxsin öz içindən gəlir; məsələn: tələbənin dilöyrənmə prosesinin özündən həzz alması, yeni bilikər əldə etmək həvəsi və ya ehtiyacı, özünü daha yaxşı hiss etmək arzusu, digər tələbələrdən fərqlənmək istəyi və s.

Tədqiqatçı və metodistlərin bir çoxu qeyd edir ki, uğurun qazanılmasında daxili motivasiya daha önəmlidir. Əgər tələbənin xarici dil fənnini götürməsinin səbəbi məcburiyyətdən (xarici motivasiya) irəli gəlirsə, onun yaxşı nəticə əldə etməsi o zaman yüksək olar ki, dərs prosesində tələbədə həmin fənnə qarşı sevgi, maraq yaradılsın (daxili motivasiya).

Xarici dilin öyrənilməsində müxtəlif motivasiya mənbələri mövcuddur: yaşadığımız cəmiyyət, önəmli insanlar, müəllim, metod və digərlər.

**Yaşadığımız cəmiyyət.** Ümumiyyətlə, xarici dilin öyrənilməsinə sinifdənxaric də müəyyən münasibət mövcuddur; məsələn: yaşadığımız cəmiyyətdə hər hansı xarici dilin öyrənilməsi nə qədədr vacibdir? Yaxud həmin dilin kurrikulumda/təhsil proqramında vacibliyi nə dərəcədədir? Məcburi və ya ixtisasseçmə fənlər sırasına daxildirmi?

Əgər tələbələrə 2 xarici dil seçimi verilsəydi, hansı dili və nə üçün seçərdilər? Bütün bu amillər tələbənin tədris olunan xarici dilə yanaşmasına təsir edir, yanaşmanın xarakterindən asılı olaraq tələbənin sinfə "gətirdiyi" motivasiyanın dərəcəsi dəyişilir. Hələbənin hər hansı bir xarici dili öyrənməsi öz seçimi olduğu halda, o, mütləq şəkildə yaşadığı cəmiyyətdəki həmin dilə qarşı illər ərzində formalaşan münasibəti özü ilə sinfə gətirmiş olur - mənfi, yaxud müsbət.

**Önəmli insanlar.** Tələbələrin xarici dilin öyrənilməsinə olan yanaşmalarına onlar üçün önəmli insanların da təsiri böyükdür. Valideynlərinin və bacı-qardaşların münasibəti çox zaman dilin öyrənilməsində həlledici rol oynayır; məsələn: valideyn, yaxud bacı-qardaşlar tələbənin xarici dili öyrənməsini zəruri hesab edirlərmi; yoxsa onlar üçün Riyaziyyat, yaxud Ana dili, Ədəbiyyat kimi fənlər daha önəmlidir? Bu kimi səbəblər tələbənin motivasiyasına çox təsir edir.

Tələbə yoldaşların da motivasiyaya təsiri olduqca böyükdür. Əgər onlar, ümumiyyətlə, dil fənninə, yaxud dil dərsində verilən tapşırığa (qrup işi, dialoq, müzakirə və s.) tənqidi yanaşırlarsa, o zaman digər tələbənin motivasiyası aşağı düşə bilər. Entuziazmı olan tələbə yoldaşı motivasiyası zəif dostunu belə özü ilə "yüksəklərə" çəkə bilər.

**Müəllim.** Əlbəttə ki, tələbələrin davamlı motivasiya göstərmələrində müəllim ən önəmli amildir. Motivasiyanın səviyyəsi müəllimin dilə yanaşmasından və tədris metodikasından bilavasitə asılıdır.

**Metod.** Həm müəllimin, həm də tələbənin öyrətmə və öyrənmə prosesinə güvənlərinin olması olduqca önəmlidir, hətta həyati vacibdir. Bir tərəfin (müəllim/tələbə) belə öyrətmə metoduna olan güvənsizliyi motivasiyanı aşağı salır. Bu o deməkdir ki, müəllim özü də tədris zamanı istifadə etdiyi metodun auditoriyadakı tələbələrlə həqiqətən "işlədiyindən" əmin olmalı və tələbələr də müəllimin öyrətdiyi metoddan tam razı qalmalıdırlar. Əks halda, nə müəllim, nə də tələbələr dərsin əsas məqsədinə çata bilməyəcəklər. Dərsin isə əsas məqsədi nəticə, nəticə isə tələbələrin həmin dərsdən qazandığı müvəffəqiyyətidir. Beləliklə, öyrətmə metodu düzgün seçilərsə, tələbələrin motivasiyası yüksək, motivasiya yüksək olarsa, nailiyyət və uğurlu alınar.

Fərqli yaş, yaxud səviyyələr üzrə xarici dil dərslərinin əvvəllərində (ilk dərslərində) bütün müəllimlər "müxtəlif" motivasiyalı tələbələrlə qarşılaşırlar. Bəzi tələbələr dərsə artıq müəyyənləşmiş məqsədlərlə gəlir, həmin məqsədlərə çatmaq üçün onların xarici motivasiyaları yüksək olur. Bəzilərinin daxili motivasiyaları onları hər zaman "ruhlandırır" və dərsə qarşı sevgilərini artırır. Onu da qeyd etmək lazımdır ki, motivasiya davamlı, yaxud stabil olan "vəziyyət" deyil; məsələn: yüksək daxili motivasiya zamanla azala, yaxud tam "ölə" bilər, necə ki, zəif motivasiyanı dərs müddətində gücləndirmək mümkündür.

Tələbələrin motivasiyasını artırmaq müəllimlərin vəzifələrindən biridir, lakin müəllimlər də sinifdəki bütün tələbələrin motivasiyalarına görə məsuliyyət daşımırlar.



ZƏRİFƏ ƏLİYEVA,
*AİT Tədris şöbəsinin müdiri*

Buna baxmayaraq, tələbələrin dərsdə "davamlı" iştirakı, dərsə qarşı olan marağı məqsədlərin qoyulması, öyrənmə mühiti və maraqlı dərslərdən çox asılıdır.

**Məqsədlərin qoyulması.** Yuxarıda qeyd etdiyimiz kimi, məqsədəçatma və motivasiya amilləri bir-biri ilə çox bağlıdır. Bunun üçün müəllim müəyyən məqsədlərin qoyulmasında və tələbələrin həmin məqsədə çatmasında köməklik göstərməlidir. Burada uzun və qısamüddətli məqsədlər arasındakı fərqləri müəyyən etmək lazımdır.

Uzunmüddətli məqsədlərə hər hansı bir xarici dilin tam mənimsənilməsi, semestrin sonunda imtahandan yaxşı nəticənin əldə edilməsi, gələcəkdə daha yaxşı iş imkanlarının olması və digər nümunələri aid etmək mümkündür.

Qısamüddətli məqsədlərdə müəyyən bir mövzunun/qrammatik qaydanın tam mənimsənilməsi, uğurlu inşanın yazılması, diskussiyada iştirak etmək imkanı və ya kollokviumdan yaxşı qiymət almaq kimi misalları nümunə gətirmək olar.

Əlbəttə ki, uzunmüddətli məqsədlər daha önəmlidir, lakin bunu da nəzərə almaq lazımdır ki, onlar tələbələrə çox uzaq görünə bilər. Qısamüddətli məqsədlər isə xarakterinə görə, tələbələrin gündəlik həyatı ilə çox yaxındır. Əlbəttə ki, həftənin sonuna "fikri cəmləmək" daha asandır, nəinki ilin sonuna.

Müəllim tələbələrə qısamüddətli məqsədlərinə çatmaqda köməklik edərsə, bu onların motivasiyalarına yaxşı təsir göstərmiş olar.

**Öyrənmə mühiti.** Mümkündür ki, müəllimlər tədris otağının (auditoriyanın) seçilməsində birbaşa iştirak etmək imkanına sahib olmasınlar, lakin onlar təyin edilmiş otağın "fiziki görünüşü"nə və dərsdəki "emosional" mühitə "müdaxilə etmək" gücündədirlər. Qeyd olunan hər iki amil (fiziki görünüş və emosional mühit) tələbələrin ilkin və davamlı motivasiyalarına güclü təsirə malikdir.

Sizcə, tələbə gözəl və rəngli auditoriyaya girdikdə onun motivasiyası yüksək olar, yoxsa rəngsiz-ruhsuz otağa? İnanın ki, bütün "cansız" otaqlara müxtəlif vizual materiallar istifadə etməklə ruh qatmaq mümkündür. Otaqdakı əşyaların yerini dəyişməklə də monotonluqdan qaçmaq mümkündür; məsələn: dərsin məzmunundan (qruplarla iş, diskussiya, debat və s.) asılı olaraq parta və stulların yerini dəyişməklə, dərs zamanı tələbələrə yerlərini dəyişməyə icazə verməklə dərsi rəngləndirmək mümkündür.

"Emosional" mühit auditoriyanın fiziki görünüşündən qat-qat önəmlidir. Buna görə müəllimlər tələbələrlə davranışlarında, münasibətlərində olduqca ehtiyatlı olmalıdırlar. Səs tonu, geyim tərzi, hərəkətləri, jest və mimikalarından asılı olaraq, tələbələrin suallarına cavab verməsi, səhvlərini düzəltmə, rəy və fikirlərini bildirmə üslublarına qədər. Auditoriyadakı müxəlif öyrənci tiplərinə yol tapmaq üçün auditoriyada dəstəkləyici və əməkdaşlıq mühiti yaratmaq olduqca vacibdir.

**Maraqlı dərslər.** Tələbələrin davamlı motivasiyasını təmin etmək üçün müəllimin keçdiyi mövzu, dərs zamanı verdiyi tapşırıq (qrup işi, diskussiya, debat və s.), kurs işlərinin mövzuları və digərləri onlara maraqlı olmalıdır. Yalnız bu halda onlar öyrətmə və öyrənmə prosesinin həqiqi iştirakçılarına çevrilə bilərlər. Maraqlı mövzu, tapşırıqlarla yanaşı, şübhəsiz ki, onların təqdimatına və izahına da xüsusi fikir vermək lazımdır.

Ümumiyyətlə, öyrətmə və öyrənmə prosesi birtərəfli məsələ olmadığına görə, motivasiya amili yalnız müəllim, yaxud tələbədən asılı deyil. Burada hər iki tərəfin mövqeyi önəmlidir.

**"ÖLÜM VAR Kİ, HƏYAT QƏDƏR ŞƏRƏFLİ..."**

# İlham və Fərizə

***"Qara Yanvar"da şəhid olmuş cütlük - İlham və Fərizə haqqında yazmaq qərarına gəldim. Ölməz və əbədiyaşar bir sevgi hekayəsi olan gənc ailə XX əsr tarixinə "İlham və Fərizə" dastanı yazdı. Ədəbiyyatımıza nəzər saldıqda, görürük ki, Azərbaycanın görkəmli ədibləri əsrlər öncə öz əsərlərində sevgisi naminə canından keçən, bir-birinə qovuşa bilməyən, eşq, məhəbbət yolunda əzablara düçar olmuş obrazlar yaratmışlar.***



"Fərhad və Şirin", "Əsli və Kərəm", "Leyli və Məcnun" belə obrazlarla zəngin əsərlərdən yalnız bir neçəsidir. Sevgi qəhrəmanlarından çox nümunələr gətirmək mümkündür. İlham və Fərizənin həm Vətənə, həm də bir-birlərinə olan məhəbbəti ən ali sevgi kimi daim yüksəklikdə duracaqdır. Məhz yazılmamış bu dastanın qəhrəmanları olan İlham və Fərizə əbədi sevginin unudulmaz simvolu kimi, daim Azərbaycan gəncliyinin yaddaşında qalacaqdır.

...29 ildir ki, hər dəfə 20 Yanvar faciəsini xatırladığımızda, gözümüzün önündə haqqında mütləq danışacağımız bu iki qəhrəman canlanır - İlham və Fərizə!

1989-cu ilin 30 iyun tarixi... İki gəncin həyat və taleyinin əbədi olaraq birləşdiyi həmin gün... Mənalı və unudulmaz həyat yolu keçən İlham və Fərizənin məhəbbətinin ömrü qısa olsa da, ölümlərindən sonra əbədi sevgi ilə sevilirlər.

İlham Əjdər oğlu Allahverdiyev 1962-ci il iyunun 12-də Ağdam rayonunda anadan olmuşdur. İbtidai sinfə Ağdam 1 saylı ümumtəhsil məktəbində getsə də, Bakıdakı 54 saylı məktəbdə orta təhsilini başa vurmuşdur. Atasını erkən yaşda itirən İlham nənəsinə həyan olmaq üçün yenidən Ağdama - onun yanına qayıdır. Ağdamda həm zavodda işləyir, həm də nənəsinin qayğısına qalırdı. İlham 1980-1982-ci illərdə 18 yaşında ikən Latviyaya hərbi xidmətə yollanır. Xidmətini başa vurduqdan sonra Bakıya qayıdan İlham D. Bünyadzadə adına Gəmi Təmiri Zavodunda dəzgahçı işinə düzəlir. Bakıda işlədiyi müddətdə, həm də Bakı Texniki Texnikumunu da bitirir.

Fərizə Çoban qızı Nəbiyeva 1970-ci il avqust ayının 11-də Qərbi Azərbaycanda anadan olmuşdur. Fərizə Tibb Məktəbində təhsil alırdı.

İlham və Fərizənin həyat yolunu öz əzizlərinin, qohumlarının xatirələrindən dilə gətirmək istəyirəm. İlham əsgər gedib-gələndən sonra, ailəsi onu evləndirmək qərarına gəlir. O, bacısı Gülbəniz Allahverdiyeva ilə bir sinifdə oxuyan Fərizəni çoxdan gözəltı etmişdi. ...Elçiliyin ardınca nişan mərasimi oldu. Həmin gün İlhamla Fərizənin ən xoşbəxt günlərinin başlanğıcı idi... ...1989-cu il 30 iyun tarixində toyları baş tutur. 1990-cı ilin yanvarında İlham öz qazancı ilə aldığı yeni evlərinə köçür, müstəqil yaşamağı qərarlaşdırır. Olacaqlardan xəbərdar kimi yeni evlərində qonaqlıq verən gənc ailə bütün doğmalarını, əzizlərini ətrafına toplayır, sanki burada onlarla vidalaşmaq istəyirdi.

Bu günlərə qədər gənc ailənin həyatında hər şey yolunda gedirdi. Qanlı Yanvar gecəsinədək... İlham da qəlbində Vətən sevgisi olan, milli azadlıq və ərazi bütövlüyü naminə mübarizəyə qalxan dinc sakinlərdən olur. Silahsız olmasına baxmayaraq, təcavüzkarların önünə qorxmadan, çəkinmədən, əliyalın şəkildə çıxan İlham qətlə yetirilən yüzlərlə günahsız insandan yalnız biri idi. İlham sanki baş verəcəkləri hiss edirmiş kimi, Fərizənin təhlükəsizliyinə əmin olmaq üçün yanvarın 19-da onu yaşadıqları evdən götürüb, anasının yanına aparır. Həmin günlərdə şəhərdə güllə səslərinin eşidilməsi adi hala çevrilmişdi. İnsanları onların əsl güllələr olmadığına inandırırmışlar.

Ölümündən 3 gün əvvəl İlhamın ürəyini qəribə narahatlıq hissi zəbt etmişdi. ...Və həmin qanlı gün gəldi. İlham qardaşı oğlu Əjdəri son dəfə öpüb evdən çıxdı. Fərizə İlhamın getməsinə heç cür razı olmurdu. Dostları ilə birgə İlham axşama doğru evdən çıxır.

...Gecə saat 1-in yarısı idi... İlhamdan hələ də xəbər çıxmamışdı. Səhərə doğru hava yavaş-yavaş işıqlanırdı... Ailəsi bu dəhşətli hadisədən xəbərsiz halda, onun evə dönməsini gözləyirdi. İlhamı isə gecəyarısı xain rus əsgərləri güllələmişdilər. Günahsız və silahsız əhalini qorumaq üçün əliyalın şəkildə tankların qabağına çıxan İlham ard-arda aldığı güllə yarasından sonra ağır yaralanır. Qaranlıq gecədə onun taleyinə də qara buludlar çökür. İlham işıqlı həyatdan əbədi olaraq gedir. Acı xəbəri eşidən Fərizə bunun doğruluğuna inanmır, ya da inanmaq istəmirdi. Bunun doğru olmadığını deyir, həqiqətlə barışmağı bacarmırdı. Onu heç kəs evdə saxlaya bilmir, İlhamı axtarmaq üçün yalın ayaqla küçələrə düşür. Çox təəssüf ki, zamanı geri qaytarmaq artıq mümkün deyildi...

İlhamın dəfnindən sonra Fərizə bir neçə dəfə özünü öldürməyə cəhd edir, lakin evdəkilər hadisədən tez xəbər tutaraq, baş verə biləcək faciənin qarşısını alır. O isə öz yarına qovuşmaq istəyirdi. Gecə-gündüz yalnız bu haqda düşünən Fərizə səhər tezdən özünü zəhərləyərək öldürür. Bilirdi ki, həmin gün yerinin dəyişdirilməsi üçün İlham məzardan çıxarılacaq. Fərizə ölümündən qabaq ailəsinə məktub yazmaq istəyir. Taqəti olmadığından, məktubu tamamlaya bilmir.

...Ölümündən sonra Fərizədən geri qalan tamamlaya bilmədiyi məktub olur. Məktubu olduğu kimi yazıram: "Ana, məni ağlama. Heç biriniz ağlamayın. Mən İlhamsız yaşaya bilmərəm, onsuz da...". Beləcə, bu cümlələrlə sevgi dastanına nöqtə qoyulru. Qoyulur ki, yenidən oxunsun. Fərizə də İlhamla birgə Şəhidlər xiyabanında dəfn edildi. Onlar ömürlərinin ən gözəl vaxtlarında Vətən və sevgi üçün canlarından keçdilər. Bu gün Şəhidlər xiyabanını ziyarət edən hər kəs onları yad edir. Onların məzardaşları müqəddəslik, saflıq rəmzinə çevrilib. 2004-cü ildən onların toy günü - 30 iyun tarixi hər il Azərbaycanda qeyri-formal olaraq, Sevgililər Günü kimi qeyd olunur.

2016-cı ildə şəhid İlham Allahverdiyevin şəxsi əşyaları qardaşı Elxan tərəfindən Azərbaycan İstiqlal Muzeyinə təhvil verilib. 2017-ci ildə Azərbaycan Xalça Muzeyində Səməd Təbrizlinin İlham Allahverdiyev və Fərizə Nəbiyevaya həsr etdiyi "Sədaqət" xalçasının təqdimatı olub. 2017-ci ildə Türkiyə yazıçısı İlham və Fərizə haqqında "Ferize (kanlı yanvar)" romanını yazıb.

**İlham və Fərizənin xatirəsinə...**

*Dözməyib qatilin kəskəhakəsinə,*
*İlham çölə çıxdı güllə səsinə,*
*Gördü qırhaqırdı, gördü vurhavur,*
*Tanklar adamların üstünə cumur.*
*Bağırdı: "Soldatlar, neyləyirsiniz?*
*Axı, bunlar ilə siz də birsiniz.*
*Axı bu adamlar silahsızdılar".*
*Soldatlar daha da coşub qızdılar.*
*Bu sözlər İlhamın son sözü oldu,*
*Ona da bir güllə... o da vuruldu.*
*O gecə yatmadı bir an Fərizə,*
*İlhamı gözlədi,*
*İlham gəlmədi.*
*Dönük taleyi ilə durdu üz-üzə.*
*Qalıb küçə ilə ev arasında,*
*Gecəni sübhədək o dincəlmədi.*
*Ertəsi... qapqara xəbəri gəldi,*
*Ölümün həyata zəfəri gəldi.*
*Çatmadı əvvəlcə bu xəbər ona,*
*İnana bilmədi qulaqlarına.*
*Elə ki, inandı... o, lal kəsildi.*
*Heykələ döndü.*
*Anladı, bildi:*
*Qapısı bağlandı, ocağı söndü...*

**Aişə Baxşiyeva,**
***AİI Tədris şöbəsinin mütəxəssisi***

# ГОВОРИ БЛАГОЕ ЛИБО МОЛЧИ

**Дела говорят больше, чем слова. Я полагаю, что все согласны с этим. Я считаю, что важны и слова, и дела. Они дополняют друг друга. Слова важны. Мы используем слова, общаемся с нашими друзьями и семьей. Мы используем наши слова для ведения бизнеса. Мы используем слова, чтобы дисциплинировать наших детей. Политики используют слова, чтобы убедить вас, что они лучшие кандидаты на позицию. Слова являются важной частью каждого аспекта нашей жизни. В Священной Книге Ислама также отмечается важность прекрасных слов (Сура "Ибрахим" 24-27 аяты):**

أَلَمْ تَرَ كَيْفَ ضَرَبَ اللَّهُ مَثَلاً كَلِمَةً طَيِّبَةً كَشَجَرَةٍ طَيِّبَةٍ أَصْلُهَا ثَابِتٌ وَفَرْعُهَا فِي السَّمَاء

Разве ты не видишь, как Аллах приводит притчи? Прекрасное слово подобно прекрасному дереву, корни которого прочны, а ветви восходят к небу.

تُؤْتِي أُكُلَهَا كُلَّ حِينٍ بِإِذْنِ رَبِّهَا وَيَضْرِبُ اللَّهُ الأَمْثَالَ لِلنَّاسِ لَعَلَّهُمْ يَتَذَكَّرُونَ

Оно плодоносит каждый миг с дозволения своего Господа. Аллах приводит людям прит-

وَمَثَلُ كَلِمَةٍ خَبِيثَةٍ كَشَجَرَةٍ خَبِيثَةٍ اجْتُثَّتْ مِن فَوْقِ الأَرْضِ مَا لَهَا مِن قَرَارٍ

чи, - быть может, они помянут назидание.

А скверное слово подобно скверному дереву, которое можно вырвать с поверхности земли, ибо нет у него прочности.

يُثَبِّتُ اللَّهُ الَّذِينَ آمَنُواْ بِالْقَوْلِ الثَّابِتِ فِي الْحَيَاةِ الدُّنْيَا وَفِي الآخِرَةِ وَيُضِلُّ اللَّهُ الظَّالِمِينَ وَيَفْعَلُ اللَّهُ مَا يَشَاء

Аллах поддерживает верующих твердым словом в мирской жизни и Последней жизни. А беззаконников Аллах вводит в заблуждение - Аллах вершит то, что пожелает.

Мы можем быть точно оценены нашими словами, потому что они являются точным отражением того, что происходит в наших сердцах. Как будто я держу чашку, а ты не знаешь, что там. Я мог бы сказать вам, что там вода, или там сок. Но если я споткнусь и выпью или разлею немного этого напитка, вы точно будете знать, что там. То же самое с нашими словами и нашими сердцами. Когда мы говорим, содержимое наших сердец выливается. Наши слова всегда показывают, что в наших сердцах, добро или зло. Всегда надо дружелюбно и мягко относится другим. В 11-ом аяте суры "Худжурат" так описывается правильное поведение человека:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا يَسْخَرْ قَومٌ مِّن قَوْمٍ عَسَى أَن يَكُونُوا خَيْرًا مِّنْهُمْ وَلَا نِسَاء مِّن نِّسَاء عَسَى أَن يَكُنَّ خَيْرًا مِّنْهُنَّ وَلَا تَلْمِزُوا أَنفُسَكُمْ وَلَا تَنَابَزُوا بِالْأَلْقَابِ بِئْسَ الِاسْمُ الْفُسُوقُ بَعْدَ الْإِيمَانِ وَمَن لَّمْ يَتُبْ فَأُوْلَئِكَ هُمُ الظَّالِمُونَ

О те, которые уверовали! Пусть одни люди не насмехаются над другими, ведь может быть, что те лучше них. И пусть одни женщины не насмехаются над другими женщинами, ведь может быть, что те лучше них. Не обижайте самих себя (друг друга) и не называйте друг друга оскорбительными прозвищами. Скверно называться нечестивцем после того, как уверовал. А те, которые не раскаются, окажутся беззаконниками.

Или в 53-ем аяте суры "аль-Исра":

وَقُل لِّعِبَادِي يَقُولُوا الَّتِي هِيَ أَحْسَنُ إِنَّ الشَّيْطَانَ يَنزَغُ بَيْنَهُمْ إِنَّ الشَّيْطَانَ كَانَ لِلْإِنسَانِ عَدُوًّا مُّبِينًا

Скажи Моим рабам, чтобы они говорили наилучшие слова, ибо дьявол вносит между ними раздор. Воистину, дьявол для человека - явный враг.

В Судный день мы предстанем перед святым Судьей всей вселенной. И когда мы сделаем это, наши слова станут свидетелями - либо свидетельствующими за нас, либо против нас. Доказательства будут представлены. Аллах будет смотреть на то, как мы разговаривали людьми, незнакомцами, нашими супругами или боссами, особенно нашими родителями. Так как родительское право высоко оценивается у Аллаха: (сура "аль-Исра", 23-й аят)

وَقَضَى رَبُّكَ أَلاَّ تَعْبُدُواْ إِلاَّ إِيَّاهُ وَبِالْوَالِدَيْنِ إِحْسَانًا إِمَّا يَبْلُغَنَّ عِندَكَ الْكِبَرَ أَحَدُهُمَا أَوْ كِلاَهُمَا فَلاَ تَقُل لَّهُمَآ أُفٍّ وَلاَ تَنْهَرْهُمَا وَقُل لَّهُمَا قَوْلاً كَرِيمًا

Твой Господь предписал вам не поклоняться никому, кроме Него, и делать добро родителям. Если один из родителей или оба достигнут старости, то не говори им: "Тьфу!" - не кричи на них и обращайся к ним почтительно.

Некоторые из нас очень осторожны с нашими деньгами. Мы составляем бюджеты, балансируем наши расходы. Мы знаем, что должны хорошо управлять нашими деньгами. Хорошо, что такая же осторожность и расчет должны применяться к тому, как мы используем наши слова. Потому, что все использованные нами слова, завтра вернутся к нам как бумеранг.

Наши слова как молотки. Мы можем безрассудно размахивать ими и разбивать вещи. Или мы можем использовать их, чтобы тщательно строить вещи. Часто, когда мы сталкиваемся с чем-то трудным, первое, что мы делаем, это просто рассказываем друзьям, семье. Или, может быть, мы просто громко рассказываем об этом самим себе. Какая пустая трата слов. А человек должен говорить с Богом об этом. Говорить с Богом никогда не бывает пустой тратой слов. Поэтому, когда нам нужна помощь, вместо того, чтобы просто злиться, мы должны просто поговорить с Тем, кто отвечает. И если это хорошо для нас и для Его славы, Он исполнит нашу просьбу. Мы должны помнить, что говорить с Богом о ситуации важнее и эффективнее, чем говорить с другим человеком.

Настоящий способ следить за своими словами - следить за своими сердцами, потому что они так тесно связаны. Существует прямая линия от сердца к языку. Я хочу привести пример из машины или корабля, чтобы показать, насколько сильны наши слова. Как маленький руль может управлять большим кораблем, точно так же язык в наших телах, он настолько мал, но может управлять всей нашей жизнью.

Наши слова не просто контролируют нас, они влияют и на мир вокруг нас. Это изображение пресной и соленой воды. Например, у вас есть 2 стакана воды, один пресной и один стакан соленый, и вы налили их вместе, в результате вы получите 1 большой стакан соленой воды. Соль перекрывает и загрязняет пресную воду. Как то, что мы говорим, влияет на мир вокруг нас.

Если вы говорите что-то недоброе или грубое, или сердитые слова, это похоже на то, что ваши слова написаны краской. Вы расплескаете свои эмоции на человека, с которым разговариваете, и они несут это с собой, и слова - краска - попадают на других, и они, в свою очередь, в итоге распространяют эту краску или те слова, куда они идут ... Наши слова могут распространять любовь и жизнь, или они могут распространять тьму и ненависть - Они могут начать войну или принести мир, они могут почтить друг друга или разрушить людей.

Слова являются основой нашего общения друг с другом, а сила общения - это навыки, которые важны для того, чтобы использовать слова для создания доверия, внушения лояльности и эффективного руководства. Когда человек не может достаточно четко выразить свои слова, это приводит к недопониманию между людьми. Они имеют в виду одно, но говорят что-то другое, что является одним из главных вопросов, когда речь идет об отсутствии общения в отношениях, любых отношениях.

Даже отношения за пределами ваших близких, таких как любовь и семья требуют внимания. В бизнесе искусство общения является языком лидерства.

Например, предложение, произнесенное в определенном ритме, изменит энергию предложения и, следовательно, воздействие предложения. Однако слова преднамеренно используются политиками во время их выступлений. Это намеренно. Это включает в себя ритм, то, как слова произносятся, соединяются и некоторые другие факторы, влияющие на слушателя определенным образом.

Слова, которые мы пишем или говорим другим, могут оказать огромное влияние и создать долговременную память - хорошую или плохую - поэтому очень важно выбирать их с умом. Слова могут создавать или разрушать отношения, а наш выбор слов и способ самовыражения могут ускорить или убить наше будущее.

Важности слова было уделено большое внимание и о ней было сказано множество афоризмов. Например, "Будьте осторожны со своими словами. Как только они произнесены, их можно только простить, а не забыть", "Не смешивайте плохие слова с вашим плохим настроением. У вас будет много возможностей изменить настроение, но у вас никогда не будет возможности заменить слова, которые вы сказали", "Будьте внимательны, когда речь заходит о ваших словах. Некоторые из них, которые мало что значат для вас, могут остаться с кем-то на всю жизнь", "Сломанная кость может зажить, но рана, которую открывает слово, может гноиться вечно" и т.д.



**ŞƏMS BAĞIROVA,**
*AİI-in Xarici Əlaqələr üzrə baş mütəxəssisi*

Наши слова похожи на молотки. Мы можем ломать вещи или строить вещи. человек живет не только хлебом, но и каждым словом, произнесенным важным для него человеком. В итоге я хочу завершить статью мудрыми словами пророка Мухаммада (мир ему): "Кто уверовал в Аллаха и в истинность Судного Дня, тот пусть говорит благое (хорошее) либо молчит".

# MİRZƏ CƏLİL DÜHASI



17 yanvar 2019-cu il tarixdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb. Şair, yazıçı, müğənni, aktyorların; digər elm və incəsənət xadimlərinin xidmətinə, fəaliyyətinə yüksək qiymət verməklə, Respublika Prezidenti elmin, mədəniyyətin və incəsənətin inkişafına dəyərli töhfələr bəxş edir. Fəxri adların, təltiflərin, müxtəlif mükafatların verilməsi, ad günü və yubileylərin keçirilməsi məqsədilə ölkə başçısının sərəncamlar imzalaması bunun bariz nümunəsidir.

Azərbaycan ədəbiyyatının məşhur simalarından biri, dünyamiqyaslı böyük yazıçı, dramaturq, publisist, ictimai xadim Cəlil Məmmədquluzadənin anadan olmasının 150 ili tamam olur. Ədəbiyyatımızda cahanşümul xidmətləri, orijinal üslubu və novatorluğu ilə iz qoyan böyük yazıçı yaddaşlardan silinməyəcək. Onun açdığı cığır Azərbaycan ədəbiyyatının yeni mərhələyə yüksəlməsində müstəsna rol oynayıb. Yazıçı bütöv bir ədəbi məktəb yaradıb, onun nailiyyətlərlə zəngin irsində AZƏRBAYCANÇILIQ məfkurəsi öz dolğun ifadəsini tapıb. Məşhur yazıçının zəngin surətlər qalereyasında ictimai mühitin aynasına çevrilən rəngarəng obrazları dövrün və zamanın güzgüsü kimi, həyat həqiqətlərini özündə əks etdirib, dillər əzbəri olub. Ana dilinin saflığı uğrunda daim mübarizə aparan Cəlil Məmmədquluzadənin yaratdığı qiymətli dram, həmçinin nəsr əsərləri məzmun, publisistika baxımından özündə milli və ümumbəşəri dəyərləri ehtiva edir.

Azərbaycan xalqının çoxəsrlik mədəni sərvətləri sırasına misilsiz töhfələr vermiş söz ustası Cəlil Məmmədquluzadə Vətən sevgisi ilə doğulan bir qəhrəmandır. Bu sevgi onu o qədər ucalara qaldırıb ki, həmin zirvədən hər şeyi olduğu kimi görərək, eybəcərlikləri ustalıqla qələmə alıb və ifşa edib. Milli şüurun oyanmasında, milli ruhun formalaşmasında Cəlil Məmmədquluzadə və onun "Molla Nəsrəddin" jurnalı əvəzsiz məktəb rolu oynayıb. Mirzə Cəlil qaranlıqlar içində ulduz kimi parıldayaraq, işıqlı amallar və xoş gələcək uğrunda uzun yol gedib, bu arzusunun reallaşmasını xalqın maarifləmməsində görüb. Dəyərli alimlərimizdən akademik Abbas Zamanov böyük ədib haqqında deyib: "Mirzə Cəlil əsərlərini ürəyinin qanı ilə yazırdı".

Mirzə Cəlili oxuya-oxuya, özü də bu məktəbin davamçısı olmuş Mir Cəlal Paşayev ədibin yaradıcılığı haqqında məqalələrinin birində yazır: "Mirzə Cəlil ədəbiyyatımıza "xırda adamları", onların dərdini, ürək döyüntülərini gətirdi. Xalqın dərdini qələmə almaq - Vətənə, xalqa sonsuz məhəbbətdən doğur".

Akademik İsa Həbibbəyli isə öz elmi-publisistik yaradıcılığını, əsasən, Mirzə Cəlilə həsr etmiş, ədib haqqında bir neçə kitab çap etdirmişdir.

C.Məmmədquluzadə milli olduğu qədər də bəşəri idi. Şərqli olduğu qədər qərbli idi. Yeni dünyanın yeniliyini duyan və bu yenilikdən uzaq olmağın faciəsini dərindən dərk edən sənətkar idi. Böyük yazıçı olmaq üçün təkcə xalqın həyatı ilə yaşamaq, xalqın faciələrini görmək, duymaq və onun halına yanmaq kifayət etməzdi. Bunun üçün dünya ədəbiyyatı və ictimai fikir tarixini öyrənmək lazım idi. Sovet ideologiyasında Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığına münasibətdə çox ciddi, qaranlıq məqamlar olub. Bunlardan biri Mirzə Cəlilin dinə münasibətidir. Bəzən Mirzə Cəlili ateist adlandırıblar. Bu, tamamilə səhv fikirdir. Bunu sübut etmək üçün təkcə onun "Niyə məni döyürsünüz?" felyetonunu oxumaq yetərlidir.

Millətin ziyalıları təzyiq və təqiblərə məruz qaldılar. Bu sərt küləklər Mirzə Cəlil və onun yaratdığı "Molla Nəsrəddin" jurnalından da yan keçmədi. Qələminin gücü ilə xalqına, Vətəninə xidmət edən ədib mənəvi repressiyalara məruz qaldı.

Ulu öndər Heydər Əliyev böyük Mirzə Cəlil və onun "Molla Nəsrəddin" jurnalını belə qiymətləndirmişdir: "Biz Cəlil Məmmədquluzadəyə, sadəcə, bir ədəbiyyatçı kimi, yazıçı kimi, publisist kimi yox, eyni zamanda, böyük ictimai xadim və böyük siyasətçi kimi yanaşmalıyıq. Cəlil Məmmədquluzadə öz yaradıcılığı ilə Azərbaycanın ictimai-siyasi həyatının inkişafında, milli ruhun yüksəlməsində böyük rol oynamışdır. Bu, təkcə ədəbiyyatda, mədəniyyətdə deyil, siyasətdə də, ictimai həyatımızda da böyük xidmətdir".

**Rəhilə Misirxanlı**

# Azərbaycan İlahiyyat İnstitutu virtual sorğunun qalibi oldu

Mektebgushesi.az saytının ali məktəblər arasında keçirdiyi ənənəvi sorğu yekunlaşıb. Azərbaycan İlahiyyat İnstitutu (AİI) sorğunun qalibi olub. Bu məqsədlə 25 iyun 2019-cu il tarixdə İnstitutda birinci yerin qalibinə mükafatın təqdimolunma mərasimi keçirilib.

AİI rektoru Ceyhun Məmmədov tədbir iştirakçılarını salamlayaraq, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət-din siyasətini hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurla davam etdirdiyini vurğulayıb.

Rektor daha sonra bildirib ki, İnstitut tədrisin yüksək səviyyəsi üçün, müasir dövrümüzün tələblərinə cavab verən, zəngin dünyagörüşünə, dərin dini və dünyəvi biliklərə, güclü şəxsiyyətə malik mütəxəssislərin yetişdirilməsi məqsədi ilə konfrans, seminar, "dəyirmi masa", layihə və proqramlar təşkil edir. C.Məmmədov gənc kadrların intellektual səviyyəsinin artırılmasında daha böyük nəticələrin əldə olunması üçün elm və təhsil əlaqələrinin möhkəmləndirilməsi istiqamətində görülən işlərdən danışıb.

İnstitut rəhbəri C.Məmmədov obyektiv sorğuya görə, sayt rəhbərliyinə təşəkkür edib, həmçinin rəhbəri olduğu ali tədris müəssisəsində görülən işlərdən, mövcud tələbə-müəllim, tələbə-rektor münasibətlərindən bəhs edib. Şəffaf müəllim-tələbə münasibətlərinin hökm sürməsi üçün tələb olunan bütün zəruri addımların atıldığını və bundan sonra da bu istiqamətdə işlərin görüləcəyini nəzərə çatdırıb.



Tədbirdə mektebgushesi.az saytının təsisçisi və baş redaktoru Məzahir Məmmədli çıxış edərək, sorğunun məqsədi, keçirilmə mexanizmi və gedişiatı barədə geniş məlumat verib. Qeyd edib ki, 10 gün davam edən və 40 ali tədris müəssisəsi arasında keçirilən "Abituriyent olaraq təhsilin və idarəetmənin keyfiyyətinə görə hansı universiteti seçərdiniz?" nominasiyalı virtual sorğuda, ümumilikdə, 4 420 respondent iştirak edib. Azərbaycan İlahiyyat İnistitutu 1022 səslə sorğunun qalibi olub. Səsvermə ölkəmizin paytaxt və regionlarında yerləşən bütün ali təhsil müəssisələrini əhatə edib: "Sorğuda, ümumilikdə, 4 420 respondent iştirak edib. Nəticədə, Azərbaycan İlahiyyat İnstitutu 1 022 səslə birinci yeri tutaraq qalib olub. İkinci yerdə 996 səslə Lənkəran Dövlət Universiteti, üçüncü yerdə 505 səslə Bakı Dövlət Universiteti qərarlaşıb. Mübarizə çox gərgin, nəticələrin tez-tez dəyişilməsi şəraitində baş tutub. Nəhayət, qalib müəyyənləşib. Sorğu müddətində bütün normativlərə əməl olunub".

Təhsil üzrə ekspert, fizika elmləri doktoru, professor Şahlar Əsgərov tədbir iştirakçılarını salamlayaraq, sorğunun əhəmiyyətinə diqqət çəkib, eyni zamanda, İnstitut rəhbərliyini təbrik edib. Professor Ş.Əsgərov təhsilin və idarəetmənin keyfiyyətinə əsasən seçilən ali təhsil müəssisəsinə gələcək fəaliyyətində uğurlar arzulayıb və müvafiq qalib plaketini AİI-nin rektoru Ceyhun Məmmədova təqdim edib.

Təhsil üzrə ekspert Nadir İsrafilov Azərbaycan İlahiyyat İnstitutunda ali təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində görülən işlərdən danışıb. Həyata keçirilən tədbirlərin həqiqətən də bütün təhsil ocaqlarına səs sala biləcək səviyyədə olduğuna diqqət çəkib. Belə sorğuların nəticələrinin gələcəkdə ali təhsil ocaqlarında reytinqinin həm yerli, həm də beynəlxalq səviyyədə səciyyələndirilməsində əhəmiyyətli olacağını bildirib. N.İsrafilov vurğulayıb ki, ictimai rəyə əsaslanma və tənqidi pedaqogikanın inkişafında bu tipli sorğuların sayı artırılmalıdır.

Tədbir mövzu ətrafında müzakirələrlə davam edib.

# AİI-nin kafedra müdiri UNEC-də məruzə ilə çıxış edib

4 iyun 2019-cu il tarixdə Azərbaycan İlahiyyat İnstitutu (AİI) İslamşünaslıq kafedrasının müdiri Əhməd Niyazov, Mənəvi Dəyərlərin Təbliği Fondu (MDTF) icraçı direktorunun müavini Ceyhun Əliyev Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) Biznes və menecment fakültəsinin və Meybullayev İslam İqtisadiyyatı Mərkəzinin birgə təşkil etdikləri "İslam iqtisadiyyatı, sosial ədalət və multikultural dəyərlər" mövzusunda elmi seminarda iştirak ediblər.

Biznes və menecment fakültəsinin dekanı, dosent Mirağa Əhmədov seminarın mövzusunun aktuallığına diqqət çəkərək, ölkəmizin islami dəyərləri qoruyub saxladığını və təbliğ etdiyini bildirib. O, bu dəyərlərin təməlində tarix, adət-ənənələr, milli mentalitet, mədəniyyət və digər amillərin dayandığını vurğulayıb.

Əhməd Niyazov İslam iqtisadiyyatının ictimaiyyətdə sosial ədaləti təmin etmə əsasında nizamlandığını və bunun mərkəzində insan amilinin dayandığını vurğulayıb. O, qeyd edib ki, fərdin yaşadığı məkanda və ətrafında olan yetim, yoxsul, kasıb və ehtiyacı olanlara qarşı xeyirxah və qayğıkeş davranma onun sosial məsuliyyətidir. İslamda zəkat, xüms, fitrə, fidyə, nəzir və kəffarə kimi ibadət növlərindən, bu ibadətlərin ehtiyac içində olanların məişətini yaxşılaşdıran tətbiq sahəsi olmasından danışılıb.

Ceyhun Əliyev İslam dinində iqtisadi münasibətlərin ədalət və dürüstlük prinsiplərindən bəhs edib. Dini-mənəvi dəyərlərin bütün sahələrdə olduğu kimi, iqtisadi sahədə də qarşılıqlı hörmət və ehtirama çağırış etdiyini deyib.

Biznesin idarə edilməsi kafedrasının müəllimi Emilya Əhmədova "Qlobal İslam iqtisadiyyatı" mövzusunda çıxış edərək, İslam iqtisadiyyatına artmaqda olan maraq və bu marağı şərtləndirən amilləri açıqlayıb.

Meybullayev İslam İqtisadiyyatı Mərkəzinin rəhbəri, dosent Sərvinaz Xanlarzadə İslamın əsas məqsədinin yoxsulluğun aradan qaldırılması və insanların rifah səviyyəsini artırmaq olduğunu bildirib. Həmçinin İslam iqtisadiyyatında sosial ədalətin qorunması və bərpasının ən vacib amil olaraq göstərildiyini diqqətə çatdırıb.

Sonda mövzu ilə bağlı suallar cavablandırılıb.

# Azərbaycan İlahiyyat İnstitutu bölgələrdə



## BİLƏSUVAR

Azərbaycan İlahiyyat İnstitutu (Aİİ) 2019-2020-ci tədris ili üzrə İnstituta savadlı gənclərin cəlb olunması məqsədilə respublikanın bir sıra bölgələrində yerləşən orta məktəblərin yuxarı sinif şagirdləri üçün maarifləndirici xarakterli məlumatlandırma tədbirlərini davam etdirir. İnstitutun növbəti səfəri 30 may 2019-cu il tarixdə Biləsuvar rayonuna olub.

Öncə ümummilli lider Heydər Əliyevin abidəsi önünə tər çiçəklər düzülüb, dahi rəhbərin xatirəsi ehtiramla yad edilib.

Biləsuvar Rayon İcra Hakimiyyəti Başçının birinci müavini Xanlar Məmmədov qonaqları salamlayaraq bildirib ki, respublikamızda bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də əldə olunan tarixi nailiyyətlər məhz ümummilli lider Heydər Əliyev və onun layiqli davamçısı, dövlətimizin müstəqilliyinin qarantı olan cənab Prezidentimiz İlham Əliyevin gərgin əməyinin nəticəsidir. Məhz Heydər Əliyev tərəfindən əsası qoyulmuş Milli Təhsil strategiyasının əldə etdiyi uğurlar Azərbaycan təhsilinin dünyanın inkişaf etmiş təhsil sisteminə inteqrasiyasını təmin etmişdir. X.Məmmədov qeyd edib ki, respublikamızda təhsil sahəsində aparılan islahatlar, bu sahədə yeni qanunvericilik bazasının formalaşdırılması, yeni-yeni fərman və sərəncamların imzalanması, ümumilikdə, dövlətimizin və xalqımızın inkişafına xidmət edir.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov abituriyentləri salamlayaraq, qarşılarına qoyduqları məqsədlərə çatmaq üçün onlara səylə çalışmalarını tövsiyə edib. İnstitut rəhbəri müstəqil Azərbaycanın son illərdə davamlı tərəqqi və yüksəliş dövrü yaşadığını, ümummilli lider Heydər Əliyevin təhsilin inkişafına yönələn dövlət siyasətinin hazırda Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. Bu gün elmin, təhsilin maddi-texniki bazası sürətlə inkişaf etdirilir, yeniləşir, ən müasir, qabaqcıl texnologiyalarla təmin olunur.

Aİİ rəhbəri ölkəmizdə din sahəsinə, milli-mənəvi dəyərlərin qorunmasına böyük önəm verildiyini diqqətə çatdırıb. Bunun ən bariz nümunəsinin Prezident İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamına əsasən Azərbaycan İlahiyyat İnstitutunun yaradılması olduğunu bildirib. Rektor ali təhsil müəssisəsinin məqsəd və hədəfləri haqqında ətraflı məlumat verib.

İnstitutun İlahiyyat fakültəsinin dekanı Mirniyaz Mürsəlov tələbələrin daha yaxşı təhsil almaları üçün İnstitutda yaradılan şəraitdən söhbət açıb. Qeyd edib ki, ali təhsil ocağında tələbələrin bilikli, savadlı, intellektli, ən əsası, peşəkar mütəxəssis kimi yetişmələri, eyni zamanda, onların dinin mahiyyətini və əsaslarını, milli-mənəvi dəyərlərimizi öyrənmələri istiqamətində müxtəlif tədbirlər həyata keçirilir.

M.Mürsəlov İnstitutda qarşılıqlı etimada əsaslanan şəffaf müəllim-tələbə münasibətlərinin hökm sürməsi üçün tələb olunan bütün zəruri addımların atıldığını və bundan sonra da atılacağını bildirib. Qeyd edib ki, tədrisin keyfiyyətinin artırılmasına, müəllimlərin gündəlik fəaliyyətinə yaradıcı yanaşmalarına, tələbələrin tədrisə marağının artırılmasına, fənlər üzrə bilik və bacarıqlarının inkişafına çalışırıq.

Aİİ-nin Magistratura və doktorantura şöbəsinin müdiri Fidan Yusifova təqdimatla çıxış edərək, ali təhsil müəssisəsinə qəbul prosesinin təşkili, həmçinin mövcud ixtisaslar haqqında geniş məlumat verib. İnstituta qəbul olunmuş hər bir abituriyentin dövlətin qayğı və diqqəti ilə yaradılmış lazımi şəraitdən, ödənişsiz təhsil və digər imtiyazlardan tam yararlanacağını bildirib. Bundan başqa, tələbələrin ödənişsiz geyim və yeməklə təmin ediləcəklərini, dərslərdən əlavə, ayrıca xarici dil kurslarına cəlb olunacaqlarını və digər üstünlüklərə yiyələnəcəklərini qeyd edib.

Sonra abituriyentlərə, orta məktəb müəllimlərinə, aidiyyəti dövlət qurumlarının nümayəndələrinə Aİİ-nin tanıtım videoçarxı, ictimai fəaliyyətini əks etdirən materiallar nümayiş etdirilib.

Görüşün sonunda abituriyentləri maraqlandıran suallar cavablandırılıb.

## MİNGƏÇEVİR



İnstitutun növbəti səfəri 7 iyun 2019-cu il tarixdə Mingəçevir şəhərinə olub.

Öncə ümummilli lider Heydər Əliyevin abidəsi önünə tər çiçəklər düzülüb, dahi rəhbərin xatirəsi ehtiramla yad edilib.

Mingəçevir Şəhər İcra Hakimiyyəti İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini, dini qurumlarla işin təşkilatçısı Sahib Əliyev qonaqları salamlayaraq bildirib ki, hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə təhsilə qayğı ən yüksək səviyyədədir. Bu sahədə həyata keçirilən islahatlar, baş verən hər bir hadisə Azərbaycanın xoşbəxt gələcəyinə hesablanmışdır.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov müstəqil Azərbaycan Respublikasında təhsilə, onun inkişafına dövlətimiz tərəfindən xüsusi diqqət yetirildiyini bildirib. Cəmiyyətin həyatında təhsilin oynadığı əhəmiyyətli rolu vurğulayan Aİİ rəhbəri, həmçinin qeyd edib ki, hazırda ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə elmin, təhsilin maddi-texniki bazası inkişaf etdirilir, yeniləşir, ən müasir, qabaqcıl texnologiyalarla təmin olunur.

C.Məmmədov abituriyentlərə qarşıya qoyduqları məqsədlər uğrunda səylə çalışmağı tövsiyə edib. Bildirib ki, gənclərimiz xalqımızın milli-mənəvi, əxlaqi dəyərlərinə sədaqət ruhunda tərbiyə olunmalıdırlar. Müstəqil Azərbaycanın gələcəyi bugünkü gənc nəslin düzgün təlim-tərbiyəsindən asılıdır.



Aİİ rektoru ölkəmizdə din sahəsinə, milli-mənəvi dəyərlərin qorunmasına böyük önəm verildiyini diqqətə çatdırıb. Bunun ən bariz nümunəsinin Prezident cənab İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamına əsasən Azərbaycan İlahiyyat İnstitutunun yaradılması olduğunu bildirib. Rektor ali təhsil müəssisəsinin məqsəd və hədəfləri haqqında da ətraflı məlumat verib.

İlahiyyat İnstitutunun Dillər və ictimai fənlər kafedrasının müdiri İlkin Əlimuradov tələbələrin daha yaxşı təhsil almaları üçün İnstitutda yaradılan şəraitdən söhbət açıb. İ.Əlimuradov tədris prosesi, keçirilən fənlər haqqında məlumat verib. Qeyd edib ki, İnstitut kollektivi gənclərin zəngin dünyagörüşlü, dərin dini və dünyəvi biliklərə yiyələnən bacarıqlı kadr kimi yetişmələri istiqamətində səylə çalışır.

Aİİ-nin Magistratura və doktorantura şöbəsinin müdiri Fidan Yusifova ali təhsil müəssisənə qəbul prosesinin təşkili, həmçinin mövcud ixtisaslar haqqında geniş məlumat verib. İnstituta qəbul olunmuş hər bir abituriyentin dövlətin qayğı və diqqəti ilə yaradılmış lazımi şəraitdən, ödənişsiz təhsil və digər imtiyazlardan tam yararlanacağını bildirib. Bundan başqa, tələbələrin ödənişsiz geyim və yeməklə təmin ediləcəklərini, dərslərdən əlavə, ayrıca xarici dil kurslarına cəlb olunacaqlarını və digər üstünlüklərə yiyələnəcəklərini qeyd edib.

Sonra abituriyentlərə, orta məktəb müəllimlərinə, aidiyyəti dövlət qurumlarının nümayəndələrinə Aİİ-nin tanıtım videoçarxı, ictimai fəaliyyətini əks etdirən materiallar nümayiş etdirilib.

Görüşün sonunda abituriyentləri maraqlandıran suallar cavablandırılıb.

## MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİNDƏ

Aİİ rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov və İnstitutun əməkdaşları səfər çərçivəsində Mingəçevir Dövlət Universitetində (MDU) və Heydər Məscidində olublar.

C. Məmmədov Mingəçevir Dövlət Universitetinin rektoru Akif Hacıyevlə görüşüb. Rektor A.Hacıyev Universitetdə təhsilin səviyyəsinin yüksəldilməsi, tədrisin səmərəliliyinin artırılması istiqamətində görülən işlərdən, əldə edilən nailiyyətlərdən bəhs edib. Həmçinin Aİİ ilə MDU arasında qarşılıqlı əlaqələrin hər iki tərəf üçün səmərəli olacağını bildirib.

Aİİ rəhbəri Mingəçevir Dövlət Universitetində baş tutan görüşdən məmnunluğunu ifadə edib, MDU ilə İlahiyyat İnstitutu arasında qarşılıqlı əlaqələrin yaradılmasında maraqlı olduğunu bildirib. İnstitutun fəaliyyəti haqqında ətraflı məlumat verən C.Məmmədov xarici universitetlərlə yanaşı, yerli təhsil müəssisələri ilə də əlaqələrin qurulması istiqamətində səylərini davam etdirdiklərini vurğulayıb.

Görüşdə elm və tədqiqat sahəsində ikitərəfli əməkdaşlıq; maraq doğuran mövzularda təcrübələrdən qarşılıqlı faydalanma; birgə elmi konfrans, seminar, elmi-tədqiqat işləri və mühazirələrin təşkil olunması; iki ali təhsil müəssisəsi arasında müştərək fənlər üzrə müəllim mübadiləsinin formaları barədə müzakirələr aparılıb.

Daha sonra Aİİ rektoru və İnstitutun əməkdaşları Heydər Məscidini ziyarət ediblər. İnstitut heyətinə məscid haqqında məlumat verilib. Heydər Məscidi 1998-ci ildə inşa edilərək istifadəyə verilib. İbadət ocağının 2 minarəsi, 3 yardımçı otağı və dəstəmazxanası mövcuddur. Həyətyanı sahəsi 1 hektar olan məsciddə eyni vaxtda 1500 nəfər ibadət edə bilər.

Məsciddə Aİİ-nin mətbu orqanı "İlahiyyatçı" qəzeti, İnstitutun fəaliyyətini əks etdirən materiallar, "Qurani-Kərim"in Azərbaycan dilində tərcüməsi təqdim edilib.

# Qədər haqqında nə bilirik?

**Qədər - Allah-Taalanın baş verəcək hər bir hadisəni bütün detalları ilə əvvəlcədən bilməsi və təqdir etməsidir. Qədər Allahın "Əlim" - "Bilən" atributu ilə əlaqəli anlayış olub, kainatı, ondakı bütün əşya və hadisələri müəyyən bir nizam daxilində tənzimləyən ilahi qanundur.**

"Allah hər bir dişi məxluqun (bətnində) nə daşıdığını (oğlan, yaxud qız doğacağını), bətnlərin nəyi əskildib, nəyi artıracağını (qadınların bari-həmlini doqquz aydan tez, yaxud gec yerə qoyacağını, doğulacaq uşağın sağlam və xəstə olacağını, çox, yaxud az yaşayacağını) bilir. Hər şey Onun yanında müəyyən bir ölçü ilədir" ("ər-Rəd", 8).

"O, hər şeyi yaratmış və onu (onun nə cür olacağını) təqdir (əzəldən müəyyən) etmişdir" ("əl-Furqan", 2).

"Allah hər şey üçün bir ölçü (hədd, müddət) təyin etmişdir" ("ət-Təlaq", 3).

"O Rəbbin ki (hər şeyin keyfiyyətini, xüsusiyyətini, davam müddətini) əzəldən müəyyən etdi və (hamıya) yol göstərdi" ("əl-Əla", 3).

Qədər o deməkdir ki, dünya öz-özünə mövcud deyildir, bu kainat səbəbsiz yerə hərəkət etmir. Kainatda hər şey müəyyən nizam içərisindədir. Bu haqda "Qurani-Kərim"də açıq-aşkar ayələr vardır: "Şübhəsiz ki, Biz hər şeyi müəyyən ölçüdə (lazım olduğu qədər) yaratdıq" ("əl-Qəmər", 49); "Hər şey Onun yanında müəyyən bir ölçü ilədir..." ("ər-Rəd", 8); "O, hər şeyi yaratmış və onu (onun nə cür olacağını) təqdir (əzəldən müəyyən) etmişdir" ("əl-Furqan", 2).

Bir sözlə, Allah hər şeyi baş verməzdən əvvəl bilir və heç nə ona gizli qalmır.

Onu da qeyd edək ki, "alın yazısı", "tale", "bəxt" anlayışları daha çox fatalizmi ifadə edir və xalq arasında geniş yayılmışdır. İslam dininin qədər anlayışı bu məfhumlardan fərqlənir. Sözügedən məfhumlar xarici "səbəblər"in diktəsi altında insan oğlunun müti və iradəsiz hərəkətlərini ifadə etdiyi halda, İslamın qədər anlayışı əks mənanı özündə ifadə edir.

İslama görə, qədər icbarilik deyildir, əksinə, insan oğlunun nə edəcəyini Allah əvvəlcədən bildiyi üçün baş verəcək hər bir şey Onun dərgahında qeydə alınır. Allahın bunu əvvəlcədən bilməsi insanı bu işə məcbur etməsi mənasına gəlmir. Misal üçün deyək ki, oturub hey gözəl evin planını beynimizdə cızırıq. Planın beyində cızılması onun hələ həyata keçməsi mənasına gəlmir; yaxud belə deyə bilərik: astronomik hesablamalara görə, Ay 2045-ci ildə tutulacaqdır. Sual yaranır: görəsən, astronomik cədvəldəki həmin tarixəmi görə Ay tutulur, yoxsa Ay tutulacağı üçün həmin cədvəl tərtib edilir? Təbii ki, Ayın hərəkətinə uyğun olaraq cədvəllər tərtib edilir və tutulma tarixi müəyyənləşdirilir. İnsan üçün də eyni şeyi söyləyə bilərik. Allah onun əməllərini əvvəlcədən bildiyi üçün onun "qədər kitabı"nı yazır. Biz "Allah belə yazdı" deyə etmirik, əksinə, Allah iradəmizi necə sərf edəcəyimizi əvvəlcədən bildiyi üçün o cür yazır...

Qədər mövzusu müsəlman fikrində ən çox təhrifə uğrayan, sağlam fəhmdən kənarda qalan mövzulardan biridir. Müsəlman mütəfəkkirlərindən biri yazır:

"Təəssüf ki, İslam ümməti lap qədimdən böyük bir səhvə yol verib. Həmin səhvin bəzi acı nəticələrini hələ də yaşayırıq. Bu, müsəlmanlar arasında yayılmış cəbəriyyət - fatalizm düşüncəsidir. Bu təlim səbəbiyyət (səbəb-nəticə) qanununu müsəlmanlara bütövlükdə unutdurdu. Təbii qanunauyğunluqlarda unutdurdu və biz nəticədə yer üzünü abadlaşdırma işindən geri qaldıq. Psixoloji qanunauyğunluqlarda unutdurdu, bununla da ifrat təvəkkül zehniyyəti bizə hakim kəsildi, yaradıcı qabiliyyətdən məhrum olduq. Bu, müsəlman sivilizasiyasının tənəzzülünün səbəblərindən birini təşkil edir...".

Təbii ki, "Qismət Allahdandır", - deyib əl-qolumuzu sallamağımız doğru deyildir və İslamın adından bu cür düşünənlər yanılırlar. Bu, insanı fəaliyyətdən saxlayan, yaradıcılığını məhdudlaşdıran bir zehniyyətin səmərəsi olaraq meydana çıxmışdır. Allah insana ağıl vermişdir və o, düşünə bilən, ağı-qaradan seçən, mühakimə qabiliyyəti olan varlıqdır. Quranda bildirilir ki, insan etdiyi və edəcəyi hər bir şeyə görə Allah qarşısında cavab verəcəkdir, deməli, hər bir addımımızı düşünüb atmalıyıq. Bir dəfə Peyğəmbər (Ona Allahın xeyir-duası və salamı olsun!) uçuq evin yanından keçərkən addımlarını yeyinlədir. Ondan soruşanda ki, "Ey Allahın rəsulu, qədərdənmi qaçırsan?", belə cavab verir: "Allahın bir qədərindən digərinə qaçıram".

İslamın qazandırdığı güc imkan verəcəkdir ki, doğru və op-



timal vasitələrlə məqsədimizə çataq, güc-qüvvəmizi sağa-sola xərcləməyək, tale və qədərin bizim əvəzimizə nəsə edəcəyinə aldanmayaq! Elə insanlar vardır ki, Allahın adından istifadə edib uğursuzluqlarını, qüsurlarını ört-basdır edirlər. İslam belə bir davranışı qəti şəkildə rədd edir.

Övf ibn Malik rəvayət edir ki, bir dəfə Peyğəmbər iki nəfərin mübahisəsini həll edirmiş. Onlardan ayrılıb getmək istədiyində əleyhinə hökm çıxarılmış şəxs deyir: "Mənə Allah yetər. O nə yaxşı Vəkildir!".

Peyğəmbər ona sarı çevrilib buyurdu: "Allah acizliyi sevmir. Bu səbəbdən, daha fərasətli, daha gözüaçıq olmalısan. Yox, yenə də bir şeyə nail olmasan, onda bu sözləri - "Mənə Allah yetər. O nə yaxşı Vəkildir!" söylə" (Əbu Davud).

Yəni, insan oğlu problemlərinin həlli üçün bütün imkanlarını səfərbər etməlidir. Əgər buna müvəffəq olarsa, deməli, öhdəsinə düşəni etmişdir. Yox, çəkdiyi zəhmətə baxmayaraq, uğursuzluğa uğrayarsa, ümidsizliyə qapılmamalı, Allaha sığınmalıdır. O, hər iki vəziyyətdə güclüdür. Birinci vəziyyətdə əlindən gələni etmiş, ikincidə isə ümidsizliyə qapılmadan Allaha sığınmışdır. Deməli, insan həm zəhməti, həm də təvəkkülü ilə güclüdür.

Həzrəti Ömər vəba yayıldığı üçün Şama getməkdən imtina etmiş, "Allahın qədərindənmi qaçırsan?" - deyənlərə "Allahın qədərindən Allahın qədərinə qaçırıq" cavabını vermişdir.

Erkən dövr müsəlmanları qədər anlayışını doğru-düzgün başa düşdüklərindən, onu yaşayıb yaratma və güc-qüvvət mənbəyi olaraq nəzərdən keçirirdilər. Onlar üçün fərqi yox idi: ölümü özləri tapırlar, yoxsa ölüm onları gəzir?! Elə ki qədər anlayışı həqiqi mənasından uzaqlaşdırıldı, zəiflik və geriliyə səbəb oldu, insanlara təslimçilik ruhu hakim kəsildi.

Elə şeylər vardır ki, səbəbkar insanın özüdür və o, bu işdə məsuliyyət daşıyır; nə edəcəyini, edəcəyi şeyin nə ilə nəticələnəcəyini müəyyənləşdirməyi bacarır. Bunun üçün ona ağıl və düşüncə qabiliyyəti, mühakimə bacarığı verilmişdir. Odur ki başına nəyin gələcəyini təxmin edir, amma bunun dəqiq tarixini müəyyənləşdirə bilmir. Siqaret aludəçiliyinin əksər hallarda ağ ciyər xərçənginə səbəb olduğunu hamı bilir, amma heç kəs bunun nə vaxt baş verəcəyini dəqiqliklə söyləyə bilməz.

O ki qaldı kənar səbəblərə, təbii ki, əksər hallarda insan həmin səbəblərin doğurduğu nəticəni - qədəri əvvəlcədən görməyi bacarmır; məsələn: yaşıl işıqda yolu keçən piyada yol hərəkəti qaydalarını pozan sürücünün səhvinin qurbanı ola bilər. Belə halları insanın əvvəlcədən "görməsi" mümkün deyildir. Onu da deyək ki, Allah bəzən öz sevimli bəndələrinə, vəli qullarına başına gələ biləcək bəzi məsələləri bildirir, onlara ehtiyatlı davranmaları üçün bəsirət bəxş edir.

Bir sözlə, qədər insana kənardan diktə deyildir, çünki insan qədərini özü yazır, özü müəyyənləşdirir. Avtomobilini həddindən artıq sürətlə sürüb qəza törədən şəxs haqqında "Allah belə qismət etmişdir", - söyləmək doğru deyildir. İnsan öz davranışları ilə qədərini qabaqcadan müəyyənləşdirir. Səhvləri, ehtiyatsız hərəkətləri, düşüncəsizliyi ucbatından qapının ağzını kəsdirən "qədəri" dəyişdirmək mümkündür. Bu işdə dua ən yaxşı vasitədir. Hədislərin birində oxuyuruq: "Qədər və dua bir-birini ötüb-keçməyə çalışan iki quşa bənzəyir". Dua etməklə, Allaha yalvarmaqla gələcəkdə səhv işlər görməkdən, təhlükələrlə qarşılaşmaqdan qaçmaq mümkündür.

Dediklərimizi yekunlaşdıraq:

Kainatda ilahi nizam və proqramlaşdırma, insanda isə iradə və seçim azadlığı vardır...

Allah mütləq bilik sahibi olduğundan, gələcəkdə baş verəcək hər şeydən xəbərdardır...

O, baş verəcək hər şeyin - hadisələr və əşyaların "qeydiyyat"ını aparır...

Biz bir şeyi ona görə etmirik ki, Allah onu yazmışdır; əksinə, onu əvvəlcədən öz mütləq elmi ilə "görmüşdür". Biz nəyi edəcəyiksə, Allah da onu yazır...

✍ ***f.f.d.* Elvüsal Məmmədov,**
*dinşünas,*
*AİI-nin müəllimi*

# Mötədillikdən nəyi anlamalıyıq?

***Mötədillik fəlsəfi siyasi və dini müzakirələrin əsasını təşkil edən mühüm anlayışlardan biridir. Sadəcə, qanunların mövcudiyyəti ilə reallaşdırılması mümkün olmayan mötədilliyin mahiyyətinin şüurlu şəkildə dərk edilməsi cəmiyyətin əsas nüvəsi olan insana öz davranışlarının doğruluğunu, bu davranışlar nəticəsində formalaşan cəmiyyətin sosial-siyasi və mənəvi müstəvidəki statusunu və bu statusun keyfiyyətini ölçməyə imkan verir. Məlumdur ki, qloballaşma prosesindən həyatın bütün sahələrində nəsibini almayan cəmiyyətlər, demək olar ki, mövcud deyil.***

Özlüyündə həyatın bütün sahələrində fərdi və ictimai planda qarşılıqlı təsirlənməyi ifadə edən bu prosesi düşüncə süzgəcindən keçirdiyimiz zaman, onun cəmiyyətlərin milli-mənəvi, ənənəvi, dini, sosial dəyərlər kodeksinə müsbət və mənfi şəkildə təsirsiz ötüşmədiyinin şahidi oluruq. Doğrudur, dünyanın bir yerində ortaya çıxan elmi-texniki tərəqqi informasiya texnologiyaları sayəsində sərhədləri aşaraq, dünyanın digər yerlərindəki fərd və cəmiyyətlərin inkişafına müsbət təsirini göstərdi.

Lakin etiraf edək ki, məhz bu tərəqqi sayəsində əldə edilən güc insan nəfsini ifrat dərəcədə öz təsiri altına alaraq, onun daxili aləmindəki ahəngi getdikcə pozmağa başladı. Elə məhz buna görədir ki, bu gün kimlərə görəsə həyatın müxtəlif sahələrindəki inkişafa paralel olaraq reallaşan qloballaşma və elmi-texniki tərəqqi təbii təkamülün bir nəticəsi və mədəniyyətin yeni bir mərhələsi, kimlərə görə isə güclülərin zəifləri əzməsi üçün istifadə edilən müasir zülm vasitəsidir. Əslində, hər iki yanaşmanın haqlı olduğu cəhətlər vardır. Lakin burada əsas problem Xeyir ilə Şərin müvazinətidir. İnsan kifayət qədər maariflənərək, bütün davranışlarının əsasını təşkil edən psixo-fiziki qüvvələri arasındaki münasibətlərdə pozulmuş olan ahəng və mötədilliyi bərpa etməyənədək o, həmişə arzu və tələbatlarında başqalarının haqqını və ədalət ölçüsünü nəzərə almayacaq, həmçinin arzularına sərhəd qoymayacaq dərəcədə maddi nemətlərin köləsinə çevrilmiş olacaqdır. Bu isə nəticə etibarilə dünyada şahidi olduğumuz yoxsulluğun, ədalətsizliyin, sərmayədə monopolyanın, insanın nəfs və eqosunu çoşduran bir həyat tərzinin, nəfsani həzzlərə investisiyanın, ifrat istehlakçılığın qloballaşaraq, fərdləri, cəmiyyətləri öz təsiri altına almasına səbəb olacaqdır. Eyni ilə bu gün kimin hansı model telefon istifadə etdiyi, hansı növ avtomobil sürdüyü, hansı səmtdə və hansı dəyərdə olan mənzildə yaşadığı insanların əsas gündəmini təşkil etdiyi kimi... Bu günün insanının həqiqi missiyası kamillik deyil, "fərqli olmaq"dır ki, bu da insanın eqosunu doyuran güclü bir mühərrikdir. Elə bir mühərrik ki, insana fərdiyyətçilik və praqmatik duyğuları təlqin edir. Bu mənada, problemin ən mühüm cəhətlərindən biri də müasir kültür və mədəniyyətin öz sistemini insanın ifrat dərəcədə istehlak edilməsi istiqamətində qurmasıdır. Bəli, bu gün dünyəvi amillər uğrunda onları yaşamaq üçün vasitə olmaqdan çıxarıb, həyatın hədəfinə çevirəcək dərəcədə özünü istehlak edən bəşər prototipləri ilə üzüzəyik. Belə bir istehlak fəlsəfəsi insanın psixi və fiziki qüvvələrini bəşərin həqiqi missiyası xaricində xərcləməkdən başqa bir şey olmayıb, onu varlıqlar iyerarxiyasında ən aşağı mərtəbəyə yuvarladır.

Qloballaşma prosesi ilə meydana gələn yeni konsepsiyalar və ideologiyalar cəmiyyətlərin milli-mənəvi və dini dəyərlərini də öz sturukturu daxilində müəyyən qədər istifadə etməyə nail olmuşdur. Belə ki, bu proses sayəsində bəzi cəmiyyətlərin milli dəyərlər sferasında ortaya çıxan idxal hafizələr ölkələrdəki milli-mənəvi və dini qruplar arasındakı münasibətlərdə olması mümkün mötədillik həddinin çox vaxt nəzərə alınmamasına və nəticədə, bir-birinə düşmən kəsilən bəzi radikalist və ekstermist qrupların meydana gəlməsinə səbəb olur. Bu çərçivədəki ən bariz nümunə kimi, Yaxın Şərqdə cərəyan edən hadisələri göstərə bilərik. Günümüzdə istər maddi, istərsə də mənəvi münasibətlər sferasında ortaya çıxan bir çox problem və anlaşılmazlıqların əsasında, əslində, bəşəriyyətin tam mənada ədalət, yaxud mötədillik şüuruna malik olmaması, bu prinsipin onların həyatlarının hər sahəsindəki təhlükəsizlikləri baxımından nə dərəcədə əhəmiyyətli olduğunu dərk etməməsi faktı dayanır. Müşahidələr onu göstərir ki, həyatın hər sahəsində ciddi şəkildə ədalət və ya mötədillik böhranı ilə qarşı-qarşıyayıq. Belə olduğu halda, hər bir fərd və cəmiyyətin özünü tanıması baxımından öz düşüncə ənənəsinin dinamiklərini yenidən gözdən keçirməsi, həmin düşüncə və fikirlərdən bəzilərini mövcud sistemə müvafiq şəkildə tətbiq etməsi aktualdır. Günümüzdə ədalət və mötədillik böhranının həyatın fərdi və ictimai sahələrini zəbt etdiyini nəzərə alsaq, böyük mütəfəkkir və filosofların ədalət, yaxud mötədillik konsepsiyalarının öyrənilməsi, dərk edilməsi bu böhran dalğasının təsirlərinin minimalizə olunması baxımından böyük əhəmiyyətə malikdir. Bu mənada, dahi yunan filosofu Platon və böyük İslam filosofu Fərabinin də qeyd etdiyi kimi, mötədillik məsələsinin insan davranışlarının əsasını təşkil edən psixoloji ahəng və müvazinət ilə yanaşı, həm də ideal cəmiyyət, həmçinin dövlət anlayışı ilə də əlaqədar olması, əslində, bu konsepsiyanın müzakirə obyektinə çevrilməsinin nə dərəcədə əhəmiyyətli olduğunu bir daha göstərir.

Mötədillik və onunla etimoloji baxımdan eyni kökdən olan ədalət terminləri ərəb dilində "a-d-l" feilindən törəyib, "davranış və mühakimədə doğru olmaq", "haqqa müvafiq hökm vermək", "ölçülü olmaq", "bərabər olmaq", "bərabərləşdirmək", "orta yol", yaxud "etidal" kimi mənalara gəlir. Ədalət termini lüğətlərdə "zülm etməyib, nəfslərdə və ağıllarda doğruluğu müəyyən və açıq olan işləri tətbiq etməkdir" kimi də izah olunur. Dahi dilçi alim Rağıb əl-İsfahani mötədillik termininin əsasını təşkil edən ədalət terminini "bir şeyi bərabər şəkildə paylamaq", "bölüşdürmək" kimi şərh edib. Bu mənaları ilə yanaşı, ədalət termininin "eyni", "oxşar", "fidyə", "bir şeylə eyni tutmaq" kimi mənaları da vardır.



**ANAR QAFAROV,**
*f.f.d., dosent*

Ədalət fərdi və sosial həyatda nizam, mötədillik, doğruluq, ahəng, ölçülü olma və müsavat (bərabərlik) prinsiplərinə uyğun həyat tərzi sürmənin əsasını təşkil edən əxlaqi-ərdəmdir. Həyatın hər cəhəti ilə əlaqədar olan bu məfhum cəmiyyətin əxlaqi, dini-mənəvi, fikri və hüquqi dəyərlərinin ən əhəmiyyətli olan ünsürlərindən birini təşkil edir. Ədalət məfhumu əxlaqi bir ərdəm kimi qərar və davranışlarda tərəfsizlik, mənfi halların təsirinə məruz qalmadan hərəkət edə bilmək, mötədillik və müsavat prinsipinə uyğun davranmaq, bu prinsipi daim nəzərə alaraq onun keşikçisi olmaqdır. Hüquqi aspektdən isə ədalətin bağlı olduğu ortaq prinsip fərdlərin mənəvi baxımdan bərabərliyidir. Zülm termininin antonimi olan ədalət insanın həva və arzulara meyil etmədən hər şeyə dəyərini və qiymətini verməsi, haqqı yerinə qoyması, sahibinə çatdırması kimi mənalar kəsb edir. Bu məqsədlə, ədaləti "insaf" məfhumu ilə eynimənalı bir termin kimi də dəyərləndirə bilərik. İfrat və təfrit arasındakı orta yol və ya ahəng, mötədillik kimi mənalar kəsb edən, bu səbəbdən düşüncə tarixində tərəzi adlandırılan ədalət bəşər cəmiyyətində mülkün əsası kimi də başa düşülür.

Üstün əxlaqi keyfiyyətlərə malik olmaq istəyən insanların əldə etməli vacib olduğu ədalət ərdəmi, eyni zamanda, kainatdakı bütün varlıq aləminin varlıqlarını davam etdirməsinin əsas səbəbi kimi də göstərilir. Belə ki, "Qurani-Kərim"də Allahın yeri, göyü və bütün məxluqatı yaratdığı yazılarkən, Onun, sadəcə, varlıq aləmini yaratmaqla kifayətlənməyib, eyni zamanda, onlar üçün ölçü və bir sıra qanunlar qoyduğu da bildirilir. Sözügedən bu qanunlar sayəsində varlıqlararası münasibətlər tənzimlənərək, kainatda müvazinət təmin edilmiş olur. Kainat məhz bu qanunlar sayəsində ahəng, uyum və ölçülülük prinsipləri istiqamətində mövcuddur. Aləmdəki ahəng, müvazinət və mötədillik Allahın ədalətinin aləmdəki təzahürünün nəticəsidir və O, kainatdakı heç bir varlığı ədalətdən, mötədillikdən məhrum etməmişdir. Deməli, bəşəriyyətin kainatda müşahidə etmiş olduğu nizam və sistem də ədalət, yaxud mötədillik qanununun nəticəsidir. Bu mənada, ədalət əşyanın universal nizamının və kainatdakı düzümün bünövrəsini təşkil edən əsas qanun və prinsipdir.

Quran və hədis mətnlərinə görə, ədalət başqalarının istək və arzularının təsiri altında qalmayan stabil bir doğruluq və əxlaq qanununa bağlı olaraq reallaşan mənəvi müvazinət, eyni zamanda əxlaqi kamillikdir. Quranda müsəlman cəmiyyətə məxsus bir keyfiyyət kimi dəyərləndirilən "vasat ümmət"1 məfhumundakı "vasat" termini, demək olar ki, bütün təfsirçilər tərəfindən "ədalət" mənasında izah edilib. Buna əsasən deyə bilərik ki, İslam əxlaqı bütün bəşəriyyətə sosial münasibətlər çərçivəsində ifrat və təfrit kimi hədlərdən uzaq olan mötədilliyə əsaslanan həyat tərzini tövsiyə edir.

Filosoflar psixoloji, sosial-siyasi və dini kontekstdə mötədillik məfhumunu fəlsəfi müstəvidə müzakirə obyektinə çevirərkən, məhz ədalət məfhumuna əsaslanmışlar. Onların bu məfhuma əsaslanmalarının kökündə "orta yol" və "etidal" kimi mənalara gələn "mötədil" məfhumunun yuxarıda qeyd edildiyi kimi, ədalət termini ilə eyni kökdən olması və eyni mənanı ifadə etməsi faktı dayanır. Bu mənada, mötədilliyin fəlsəfi əsasları mövzusu məhz ədalət məfhumunu tədqiq etməklə, bu istiqamətdə irəli sürülən görüş və düşüncələr müzakirə olunacaq. Beləliklə, "Mötədillik nədir?", "Onun qaynağı nədir?", "İnsanların müştərək rəyi ilə formalaşdırılan qanunlar adil və mötədil ola bilərmi?" kimi suallara cavab axtarılacaq. Bununla yanaşı, mötədilliyin bu gün cəmiyyətimizin fərdi, ictimai və siyasi münasibətlər sferasında nə kimi əhəmiyyət daşıdığına da nəzər salacağıq.

(Davamı gələn sayımızda)

# Milli geyimlərimiz



Azərbaycanın milli geyimləri xalqımızın maddi və mənəvi mədəniyyətinin çox çətin və uzun davam edən inkişafı nəticəsində yaranıb. Azərbaycanlıların etnik tarixi, xalq yaradıcılığının bədii xüsusiyyətləri, onların müxtəlif halda formalaşmaları, bədii bəzək naxışları, toxuculuq xalq geyimində öz əksini tapıb. Ölkəmizdə ipəkçilik, pambıq istehsalı kimi sahələr inkişaf etdikcə, milli geyimin hazırlanmasında xüsusi rol oynayan parça istehsalı da artdı və bunun nəticəsində milli geyimlərdə dirçəlmə dövrü başlandı. Milli geyim dəstinin hazırlanmasında xüsusi rol oynayan, dekorativ tətbiqi sənətin başqa örnəklərində olduğu kimi, parçalarda da Uzaq Şərq mədəniyyətinə xas olan bəzi bəzək nümunələri öz əksini tapırdı.

Milli geyimin formalaşması və inkişafında Azərbaycanın bölgələri də xüsusi rol oynayıb. Müxtəlif regionlarda milli geyim dəsti ümumi forma və biçim tərzini qoruyub saxlasa da, bəzi geyim nümunələrində cüzi fərqlər nəzərə çarpırdı. Ümumilikdə geyimlər kişi, qadın və uşaq geyimlərinə ayrılırdı. Bu geyimlərin hamısı bir-biri ilə olduqca böyük oxşarlıq təşkil edirdi. Uşaq geyimləri öz formasına görə böyüklərlə eyni idi. Lakin onlar bəzi xüsusiyyətləri və ölçülərinə görə fərqlənirdi. Bütünlükdə oxşarlıq təşkil edən Azərbaycan milli geyimləri özlüyündə iki hissəyə ayrılırdı: alt və üst geyimlərinə.Üst geyim çiyinüstü və bel geyimlərindən təşkil olunub. Çiyinüstü, öz növbəsində, üst köynəyi, arxalıq, çəpkən, ləbbadə, küləcə, kürdü, eşmək və baharıdan ibarət idi. Qadın bel geyimi isə bir neçə tuman və çaxçurla tamamlanırdı.

Eramızın V-VI əsrlərinə aid olan Mingəçevir katakomba qəbirlərindən müxtəlif ipək parçalardan tikilmiş geyimlərin qalıqları tapılmışdır. Bu mənbələrin araşdırılmasından aydın olur ki, Azərbaycan ərazisində məskunlaşan ilk insanların geyimləri təbii vasitələrdən əldə edilən materiallardan (dəri, süni liflər, yarpaq və s.) olmaqla, istifadə tərzinə görə bürüncək, sarıq, örtmə və geyimə kimi müxtəlif variantlarda özünü göstərmişdir. Azərbaycanda geyim ehtiyacının ödənilməsi üçün hələ qədim dövrlərdən qoyun və quzu yunu, keçi qəzili ilə yanaşı, dəvə yunundan da istifadə edilib. Eramızdan əvvəl I minillikdə Azərbaycan əhalisi yun və kətandan toxunma köynək və şalvar geyinmiş, dəri bürüncəklərdən istifadə etmiş, keçə və yun papaqlar qoymuş, ayaqlarına isə şişburun dəri ayaqqabılar geyinmişlər.

Erkən Orta əsrlərin Azərbaycan kişi və qadın geyimləri haqqında ətraflı məlumat "Kitabi-Dədə Qorqud" dastanında qeyd olunub. Dastanda bütün geyimlər bir qayda olaraq hamısı don adlandırılır.

Azərbaycan xalq geyim fonunda XIV-XV əsrlərdə ciddi dəyişikliklər baş vermişdir. Geyimlər gündəlik və mərasim geyimləri kimi müxtəlif səciyyə kəsb etmiş, mərasim geyimlərində motivləşmə (biçim, rəng, bəzək və növ müxtəlifliyi) getdikcə daha da dərinləşmişdir.

XVI-XVII əsrləri əhatə edən illərdə Azərbaycan milli geyimləri zəngin inkişaf yolu keçmişdir. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, bu dövrdə Azərbaycanda, əsl mənada, milli geyim məktəbi yaradılmışdır. Bu dövrlərdə tikilən geyimlər şəxsin yaşını, peşəsini, hətta hansı təbəqəyə mənsub olduğunu da özündə əks etdirirdi.



*(Davamı növbəti sayımızda)*

**Nərmin Allahverdiyeva,**
**III kurs tələbəsi**

# Qan yaddaşımız

***İşğal olunmuş rayonlarımız:***

| | |
|---|---|
| **Xankəndi -** | 28 dekabr 1991-ci il |
| **Xocalı -** | 26 fevral 1992-ci il |
| **Şuşa -** | 8 may 1992-ci il |
| **Laçın -** | 18 may 1992-ci il |
| **Xocavənd -** | 2 oktyabr 1992-ci il |
| **Kəlbəcər -** | 2 aprel 1993-cü il |
| **Ağdərə -** | 17 iyun 1993-cü il |
| **Ağdam -** | 23 iyul 1993-cü il |
| **Cəbrayıl -** | 23 avqust 1993-cü il |
| **Füzuli -** | 23 avqust 1993-cü il |
| **Qubadlı -** | 31 avqust 1993-cü il |
| **Zəngilan -** | 29 oktyabr 1993-cü il |

# Azərbaycan İlahiyyat İnstitutu abituriyentləri "Açıq qapı" günlərinə dəvət edir

Azərbaycan İlahiyyat İnstitutu (AİI) III ixtisas qrupuna sənəd verəcək abituriyentləri "Açıq qapı" günlərinə dəvət edir.

"Açıq qapı" günləri iyulun 5-dək çərşənbə günləri saat 09:00-dan 17:00-a kimi keçiriləcək. İştirakçılar üçün tədris binasında məlumatlandırıcı görüşlər təşkil olunacaq, onlar institut haqqında geniş məlumat alacaqlar. Abituriyentlərə keçid balları, ixtisaslar, xarici dillərə yiyələnmək imkanları, təqaüd proqramları, xaricdə təhsil imkanları, məzunlar üçün iş imkanları, institutun beynəlxalq əlaqələri, tələbələrin sosial həyatı, yay və qış məktəbləri haqqında ətraflı məlumat veriləcək. Onlar, həmçinin dərs prosesini izləyəcək, AİI-nin əməkdaşlarına suallarla müraciət edə biləcəklər.

"Açıq qapı" günlərində iştirak etmək istəyən abituriyentlər əvvəlcədən qeydiyyatdan keçməlidirlər. İnstitutun tədris binasına daxil olarkən şəxsiyyət vəsiqəsini təqdim etmək mütləqdir.

# QARABAĞIM



**Röyal Çobanzadə,**
**I kurs tələbəsi**

*Gör neçə ildir ki, həsrətindəyəm,*
*Bir dəfə yanına gələ biləydim.*
*İsa bulağının şirin suyundan,*
*Bəh-bəhlə, doyunca içə biləydim.*

*Dırmanıb aşaydım uca dağından,*
*Meyvələr dərəydim gözəl bağından.*
*Qırmızı lalənin al yanağından*
*Dayanıb bir dəfə öpə biləydim.*

*Çapaydım dillərdə dastan atını,*
*Unudub illərin xatiratını,*
*Arxada qoyaraq ərəb atını,*
*Cıdır meydanında çapa biləydim.*

*Qaçaydım ot basmış cığırlarında,*
*Yanında olaydım çətin çağında,*
*Uçub rüzgarının qanadlarında,*
*Səmanda bir dövrə vura biləydim.*

*Açaydı güllərin yaşıl çəməndə,*
*Qıvrılıb yataydım sənin sinəndə.*

*Röyalın canı yox sənsiz bədəndə,*

*Gəlib torpağında ölə biləydim.*

Təsisçi:
Baş redaktor: Ceyhun Məmmədov
Redaktor: Rəhilə Misirxanlı
Qeydiyyat nömrəsi: 4212
VÖEN: 1305654461
Telefonlar: (012) 510-65-45; (012) 510-39-61.
E-mail: ilahiyyat-news@mail.ru
Ünvan: Əhməd Cəmil, 41A, Bakı
Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Qəzet "İLAHİYYATÇI"nın kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap edilir.
Çapa imzalanıb: 28.06.2019-cu il
Sayı: 1000, İndeks: AZ1141,
Sifariş: 2144